www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 oktyabr 2018-ci il Çərşənbə № 213 (7102) Qiyməti 60 qəpik

Xəbər

**Valyutadəyişmə məntəqələri açılır - hazırlıq başladı**

yazısı səh.13-də

# ERMƏNİSTANDAKI ANTİRUS İNQİLABININ "MEMARI" İRƏVANDAN GEDİR

İşğalçı ölkədə ilk dəfə Rusiyaya "əlcək atan" ABŞ səfirinin missiyası başa çatır; **Riçard Milz gedərkən Paşinyana vəd verdi:** "Dostunuz olaraq qalacam..."; onun xələfi Ermənistana hansı təlimatlarla gələcək?..




yazısı səh.8-də

## Ziya Məmmədov oğlunu Londondan qaçırıb

Britaniyanın Milli Cinayət Agentliyi bu ölkədə sığınacaq tapmış Azərbaycan oliqarxlarının əmlakını diqqətlə araşdırmaqda davam edəcək; bəs Məmmədovlar İngiltərədəki əmlaklarını xilas edə biləcəklərmi?

yazısı səh.7-də

## Gündəm

### Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasını keçirdi



Dövlət başçısı bildirib ki, Azərbaycanda sabitlik qorunur, möhkəmlənir və bu sabitliyin təməlində xalq tərəfindən dəstəklənən siyasət dayanır

yazısı səh.4-də

### Ali məktəblərə yeni qəbul qaydaları - tam təfsilat

yazısı səh.14-də

### Fazil Məmmədovun Bakıya niyə qayıtmamasının səbəbi bilindi

yazısı səh.3-də

### Şəhidlərin varislərinə qanpulunun verilməsinə başlandı

yazısı səh.13-də

### Avropadakı müxalifətçi azərbaycanlılar bir-birinə qarşı

yazısı səh.3-də

### XİN-in "qara siyahısı"nda yeni adlar

yazısı səh.5-də

### Dollar kreditləri ajiotajının arxasındakı sirr

yazısı səh.6-da

### İlin 10 ayının Qarabağ üçün əsas yekunu: "2019-cu ilə yaxşı zəmin yaranıb"

yazısı səh.9-da

### Rusiya XİN-ə etiraz notası göndərilib

yazısı səh.12-də

### Bakıda liman tikən şirkət borc dənizində niyə batdı - "Evrascon" ASC çətin durumda

yazısı səh.7-də

### Səməd Seyidov AŞ PA-da barışıq komissiyası yaratmaq təklif edir

yazısı səh.8-də




### "Baş lift"çiyə məhbəs qapıları göründü

yazısı səh.5-də




### İstanbulda yoxa çıxan və dünyanın axtardığı Qaşıqçı kimdir?

yazısı səh.12-də



### Cahangir Hacıyevin arvadının 28 milyon dollar vəsaiti Azərbaycana qaytarılacaq?

yazısı səh.3-də

# İlin əvvəlində Ermənistan ordusunda 44 ölüm olub




## Təhsil Nazirliyi müəllimlərin sertifikasiyası məsələsinə aydınlıq gətirib

**Dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesini tənzimləyəcək qaydalar layihəsi müzakirə mərhələsindədir.**

Təhsil Nazirliyindən "Report"a bildirilib ki, son vaxtlar ümumi təhsil müəssisələrində sertifikatlaşdırmanın keçirilməsi ilə bağlı sosial şəbəkələrdə və müxtəlif kütləvi informasiya vasitələrində yayılan məlumatlar həqiqəti əks etdirmir.

Nazirlikdən qeyd olunub ki, belə mühüm əhəmiyyətli tədbirin həyata keçirilməsi barədə ictimaiyyət arasında yanlış rəy formalaşdırılmasının qarşısının alınması məqsədilə hazırda "Dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılma Qaydası" layihəsi mütəxəssislərin iştirakı ilə müzakirə olunur: "Müzakirələr başa çatdıqdan sonra yekun sənəd təsdiq üçün hökumətə təqdim ediləcək.

Sertifikatlaşdırma prosesinin aparılması qaydası təsdiq edildikdən sonra prosesin nə zaman və hansı formada keçiriləcəyi ilə bağlı rəsmi məlumat veriləcək".



## "Trampın paylaşımları dünya neft bazarını qarışdırır"

**"ABŞ prezidenti Donald Trampın twitterdəki çılğın paylaşımları dünya neft bazarına qatmaqarışıqlıq salır".**

"Report" RİA "Novosti"yə istinadən xəbər verir ki, bunu Rusiya Federasiyasının energetika naziri Aleksandr Novak deyib.

Onun fikrincə, neftin qiymətinin artması məhz bununla bağlıdır: "ABŞ rəhbərliyi tərəfindən bütün bu duyğu qabarmaları, mülahizələr, paylaşımlar bazarı qarışdırır. Bazar nə edəcəklərini, bundan sonra nələr olacağını başa düşmür. Məsələn, bu gün bazar qiymətləri bir qədər yuxarıdır, həmin o duyğulu paylaşımlar olmasaydı, məncə, bundan aşağı olardı".

## Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək

**Bu ilin dekabrında Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək.**

"Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, bu barədə qərar parlamentin oktyabrın 9-da baş tutan iclasında qəbul edilib.

Qanunverici orqanın 55 deputatı qərarın lehinə səs verib.

Parlament iki həftə ərzində yeni baş nazir seçməməsi şərti ilə Nikol Paşinyan istefaya getməlidir.

## Bakıda qadınlara qənim kəsilən soyğunçular tutuldu

**Paytaxtda soyğunçuluq etməkdə şübhəli bilinən şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Nizami RPİ-nin 25-ci Polis Şöbəsinə sentyabrın 27-də Bakı şəhər sakini V.Abıyevin içərisində noutbuku, mobil telefonu və sənədləri olan çantasının açıq talama yolu ilə alınması, sentyabrın 30-da isə Bakı şəhər sakini Y.Abbasovaya zor tətbiq edilərək içərisində pulu, mobil telefonu və sənədləri olan çantasının alınması barədə müraciətlər daxil olub.**

Araşdırmalarla soyğunçunun Bakı şəhər sakini Ceyhun Rufullayev olduğu müəyyən edilib.

Oktyabrın 7-də, saat 01 radələrində Bakı şəhər sakini R.Hüseynova zor tətbiq edən şəxsin onun 142 manatını və mobil telefonunu alması barədə Xətai RPİ-nin 37-ci Polis Şöbəsinə müraciət daxil olub.

Soyğunçuluğu törətməkdə şübhəli bilinən iki nəfər qısa müddətdə müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb. Araşdırmalarla onların Bakı şəhər sakini Asim Məmmədov və Abşeron rayon sakini Cavad Niyazov olduqları müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar aparılır.

**2018-ci ilin yanvar-sentyabr aylarında Ermənistan silahlı qüvvələrində 44 ölüm hadisəsi qeydə alınıb.**



Virtualaz.org xəbər verir ki, bu barədə Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisi tərəfindən hazırlanan məlumatda qeyd olunur. Həmin məlumatlar mediadan, rəsmi mənbələrdən, bəzi hallarda isə ölən əsgərlərin yaxınlarından əldə edilib.

Hüquq təşkilatının məlumatında qeyd olunan rəqəmlərin yalnız 34-ü mətbuatdan və ya rəsmi mənbələrdən toplanıb. 34 faktın 27-si xidmətlə əlaqəli olsa da, 7-sinin əlaqəli olmadığı göstərilir. 10 hadisənin isə hərbi xidmətlə bağlı olub-olmaması haqqında, ümumiyyətlə, heç bir məlumat yoxdur.

Hesabatda həmçinin yalnız 40 ölüm faktının baş verdiyi coğrafi ərazi göstərilib. Araşdırmaya görə, 21 fakt Dağlıq Qarabağda (47%) və 19 fakt isə Ermənistanın ərazisində (43%) baş verib.

Vanadzor ofisindən verilən məlumatda o da qeyd olunur ki, 2018-ci ildə keçən illə müqayisədə atəşkəsin pozulması və qətl hadisələri nəticəsində ölənlərin sayı 1 nəfər azalıb. Lakin sağlamlıqla bağlı problemlərinə görə ölümlərin sayı isə 40 faizdən çox artıb ki, bunların da əksəriyyətini qəzalar təşkil edir.

Əsgər ölümləri ilə bağlı yalnız 31 fakt üzrə cinayət işi başlanıb.

## 5 hakimin səlahiyyətlərinə xitam verilib, bir hakim cəzalandırılıb

**Məhkəmə-Hüquq Şurasının iclası keçirilib. Şuradan "Report"a daxil olan məlumata görə, iclasda şuranın sədri Fikrət Məmmədov çıxış edib.**

İclasda həmçinin hakimlər barədə intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərinin kobud pozulmasına, korrupsiyaya şərait yaradan hallara, süründürməçilik və digər nöqsanlara yol verilməsi ilə əlaqədar Bakı şəhərinin Qaradağ Rayon Məhkəməsinin hakimi Rəşad Məmmədova töhmət verilib, Səbayel Rayon Məhkəməsinin hakimi Nurəddin Bağırovun tutduğu vəzifədən azad olunması, Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılovun isə hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul edilib.

Eyni zamanda 4 hakimin də səlahiyyətlərinə digər qanuni əsaslarla xitam verilib. Bununla yanaşı, konkret korrupsiya faktı üzrə araşdırma materiallarının hüquqi qiymət verilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilməsi məqsədəmüvafiq bilinib.

## "Lotu Quli" sərbəst buraxıldı

**İstanbulda saxlanılmış "Lotu Quli" ləqəbli kriminal avtoritet Nadir Səlifov oktyabrın 9-da çıxarıldığı məhkəmədə azadlığa buraxılıb.**

Musavat.com-un Türkiyədəki mənbədən aldığı məlumata görə, N.Səlifov miqrasiya idarəsində bəzi sənədləşmə prosedurundan keçib. Onun hansı ölkəyəsə ekstradisiya edilməsi təhlükəsi yoxdur.

Xatırladaq ki, Türkiyənin aparıcı media qurumlarının yaydığı xəbərə görə, onu Rusiya dövlətindən edilən şikayətlər əsasında saxlamışdılar və bəzi mətbuat orqanları N.Səlifovun Azərbaycana ekstradisiya ediləcəyini yazmışdı.

Ancaq bilgili qaynaqlardan məlum olmuşdu ki, Azərbaycan tərəfinin belə bir tələbi olmayıb, çünki N.Səlifov özcəzasını bir il öncə başa çatdıraraq azadlığa buraxılıb və ölkəni tərk edib.

N.Səlifov barəsində aparılan müvafiq araşdırma işləri başa çatdıqdan sonra-oktyabrın 10-da azad ediləcəkdi. Göründüyü kimi, onu gözlənildiyindən bir gün əvvəl sərbəst buraxıblar.

## Dumanın sədri Oqtay Əsədovu Moskvaya rəsmi səfərə dəvət edib

**Milli Məclisin sədri Oqtay Əsədov oktyabrın 9-da Türkiyənin Antalya şəhərində Avrasiya ölkələri Parlament Sədrlərinin III Müşavirəsi çərçivəsində Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinlə görüşüb.**




"Report"un Rusiya Dövlət Dumasının mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, danışıqlar zamanı Avrasiya ölkələri Parlament Sədrlərinin Müşavirəsinin gündəliyində olan məsələlər, o cümlədən iqtisadi əməkdaşlıq, ekologiya və regionun davamlı inkişafı, həmçinin parlamentlərarası qarşılıqlı əlaqələr və Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlər müzakirə olunub.

Oqtay Əsədov Azərbaycanla Rusiya arasındakı parlamentlərarası əlaqələrin daha aktiv şəkildə inkişaf etdirilməsinin tərəfdarı olduğunu bildirib. O qeyd edib ki, 2018-ci ilin yeddi ayı ərzində ölkələr arasındakı ticarət dövriyyəsi 1,5 milyard dollara çatıb.

"Rusiya ilə ən yüksək siyasi və iqtisadi əlaqələrimiz var və biz onları dəyərləndiririk", - deyə O. Əsədov bildirib.

V.Volodin isə öz növbəsində, Dövlət Duması ilə Milli Məclis arasında Yüksək Səviyyəli Parlamentlərarası Komissiyanın yaradılmasına dair işlərin yekun mərhələdə olduğunu vurğulayıb. "Gərək iş qrafiklərinə baxaq, yüksək səviyyəli komissiyanın yaradılmasına dair sənədlərin imzalanması ilə bağlı vaxt müəyyən edək. Bunu sizin rəsmi səfəriniz zamanı da edə bilərik, sizi Rusiyaya dəvət edirəm", - V.Volodin qeyd edib.

Xatırladaq ki, bu komissiyanın yaradılmasına dair razılıq Vyaçeslav Volodinin Bakıya ilk rəsmi səfəri zamanı əldə olunub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## İsveçrədən qayıdan azərbaycanlı jurnalist Bakıda niyə cərimələndi?

**İsveçrədə yaşayan azərbaycanlı jurnalist Elbəyi Həsənli oktyabrın 8-də Bakıya gəlib və vətəndə problemlə üzləşib. Modern.az xəbər verir ki, bu barədə məlumat verən Elbəyi Həsənli partiyadaşı Gülağa Aslanlının iddiası əsasında məhkəmədə cərimələndiyini qeyd edib: "Oktyabrın 8-də gecə Bakı Hava Limanında saxlanıldım. Ailəmlə Sürixdən Bakıya tətilə gəlmişdim. Polis idarəsində 2 saat olduqdan sonra buraxdılar.**

Dedilər ki, oktyabrın 9-da saat 11-də Binəqədi Rayon Polis İdarəsində olmalıyam. Getdim. Oradan Ədliyyə Nazirliyinin Nizami Rayon Şöbəsinə aparıldım. Səbəb? Gülağa Aslanlı məni Müsavat Partiyası adından 2016-cı ildə məhkəməyə verib. Çünki mən partiyanı saxta sənədlər alveri ilə məşğul olmaqda ittiham etmişdim. Yazmışdim ki, Qərbdə əsl müsavatçılar deyil, partiyaya dəxli olmayan fırıldaqçılar oturum alır. Bu da rəzalətdir, Müsavat Partiyası adına yaraşmaz hərəkətdir. Ədliyyə Nazirliyinin tələbi belədir; təkzib verməliyəm. 1 manat+10 manat Gülağa Aslanlıya ödəmələr..."

E.Həsənli 1995-ci ildən Müsavatın üzvü olduğunu xatırladaraq, Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlını qınayıb. O, partiyanın saxta sənədlər alveri ilə məşğul olması barədə geniş yazı ilə çıxış edəcəyini də vurğulayıb.

Elbəyi Həsənli əvvəllər "Yeni Müsavat" qəzetində işləyib. O, 2003-cü ildə İsveçrəyə mühacirət edib.

## Xəzərdə zirehli texnika batdı: iki hərbçi öldü

**Dağıstanda zirehli texnikanın gəmidən endirilməsi zamanı iki hərbçi ölüb.**

Rusiya KİV-i bu barədə məlumatı hüquq-mühafizə orqanlarındakı mənbəyə istinadla yayıb.

Zirehli texnika Xəzər dənizində batıb və hərbçilər hadisə zamanı xilas ola bilməyiblər.

Ölən şəxslər Dağıstanın Kayakent rayonundan olan 24 yaşlı Məhəmməddin və Həştərxan vilayətindən olan 29 yaşlı Rəsuldur. Hələlik onlardan birinin cəsədi tapılıb.

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

# Cahangir Hacıyevin arvadının 28.5 milyon dollar vəsaiti Azərbaycana qaytarılacaqmı?

## Tahir Kərimli: “Müsadirə məsələsi varsa...”
## Fikrət Yusifov: “Satışından əldə olunan məbləğ ölkəmizə qaytarılmalıdır”

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri, 15 il həbs cəzasına məhkum edilmiş Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın Londonda dəyəri 28.5 milyon dollar olan elit malikanəsinin müsadirə edilməsi çoxsaylı müzakirələrə səbəb olub. Britaniya məhkəməsinin qərarı qüvvəyə minəndən sonra malikanə müsadirə edilərsə, 28.5 milyon dolların taleyinin necə olacağı barədə müxtəlif fikirlər var.**


Tahir Kərimli


Fikrət Yusifov

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli “Yeni Müsavat”a bildirdi ki, məhkəmə qərarı tam məlum deyil:** “Mətbuatdan öyrəndim ki, belə bir qərar verilib. Belə bir ifadə işlədirlər ki, müsadirə olunur. Müsadirə də dövlət xeyrinədir. Bu doğrudanmı belədir? Mülk kimə və ya hara qaytarılacaq? Bu sualların cavabı yoxdur. Məsələ bundan ibarətdir ki, qərar qanuni qüvvəyə minirsə, onun icrası orada göstərilən kimi icra olunur. Bir daha deyirəm ki, orada müsadirə məsələsi varsa, mütləq dövlətə qaytarılmalıdır. Qərarın şərtlərini hələ ki bilmirik. Əgər Britaniya ilə Azərbaycan qanunları ziddiyyət təşkil etməsə, hər iki ölkə arasında olan qarışıqlı hüquqi yardım haqqında sazişə əsasən burada problem olmayacaq, yəni məbləğ qaytarılacaq. Əksi olarsa, yəni qanunlar ziddiyyət təşkil edərsə, məbləğin qaytarılacağına inanmıram. Müsadirədə torpaq mülkiyyətinin əcnəbiyə qaytarılması qadağan olunub. Amma İngiltərə qanunları ilə bu mümkündür. Burada ziddiyyətlərin olduğu açıq görünür. Belə olan halda İngiltərə Azərbaycan məhkəmələrinin qərarlarını icra etməyə borclu deyil. Çox təəssüf ki, qərarın tam mətni yayılmayıb. Bilsəydim dəqiqliyi ilə şərh verərdim. Amma istənilən halda qərarda göstərilənlər Britaniya və Azərbaycan qanunları ilə üst-üstə düşəcəksə, həmin məbləğ ölkəmizə veriləcək. Burada mübahisə predmeti var və həmin mübahisə predmeti də İngiltərədə yerləşir. Azərbaycan qanunlarında da ilk növbədə, həmin mübahisə predmetinin yerləşdiyi yerdə baxmaq və ya baxmamaq hallarının istisna qaydaları müəyyən edilib. Azərbaycanda da, Britaniyada da mübahisə predimetinə aid məhkəmə baxır. Mülk harada yerləşirsə, hökmən o mülkün yerləşdiyi məhkəmə baxmalıdır”.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov belə məsələlərin hüquqi müstəvidə beynəlxalq qaydalarla tənzimləndiyini qeyd etdi:** “Əgər qanunsuz yolla başqa bir dövlətin ərazisində əmlakın alınmasından söhbət gedirsə, deməli, həmin vəsait Azərbaycanda mənimsənilən, oğurlanan pullardır. Təbii ki, iddia qaldıran tərəf Azərbaycandır, bunun üçün kifayət qədər əsaslarımız var. Çünki bu əsaslarla Cahangir Hacıyevin məhkəməsində sübutlar ortaya qoymuşuq. Azərbaycanda oğurlanan pulların sadəcə bir hissəsi İngiltərədə daşınmaz əmlaka yerləşdirilib. Əgər bu gün İngiltərə məhkəməsi qərar qəbul edib, bizim hüquqi müstəvidə haqlı olduğumuzu sübuta yetirirsə, deməli, həmin əmlakın müsadirə olunması baş verir, əmlak satışa çıxarılır, satışdan əldə olunan məbləğ geriyə, Azərbaycan xəzinəsinə qaytarılır. Ən doğru yol budur. Bunun məntiqi və hüquqi izahı bu qaydadadır. Biz əgər artıq məhkəməni udmuşuqsa, demək, haqqımızı sübut etməyi bacarmışıq. Bunu bacarmışıqsa, demək, mütləqdir ki, bu əmlak müsadirə edilib satılandan sonra onun satışından əldə olunan məbləğ ölkəmizə qaytarılmalıdır. Bizim iddiamız əsasında İngiltərə məhkəməsi əmlakın müsadirəsi barədə qərar çıxarırsa, demək, məbləğ bizə verilməlidir. Yolda müəyyən rüsumlar ödəniləcək, satışda və ya vəsaitin köçürülməsində. Onlar da cüzi məbləğlər olacaq. Belə bir hadisənin, prosesin baş verməsinin özü bir örnəkdir. Yəni bu elə bir proses deyil ki, bəzi məmurlar pul vəsaitlərini ölkədən xaricə daşısınlar. Bu digər məmurlara, bu yolun yolçularına örnəkdir ki, belə yolla getməyin sonu budur, yəni oğurluq, dövlətinə, xalqına, prezidentinə xəyanət etmək olmaz. Əgər bu gün biz ölkəmizdə oğurlanan pul vəsaitlərinin taleyinin həllinə Avropanın üç əsas dövlətindən biri olan İngiltərədə nail oluruqsa, demək, hüquqi müstəvidə beynəlxalq aləmdə Azərbaycanın nüfuzu kifayət qədər böyükdür. Azərbaycan bu gün belə məsələlərin həllinə nail ola bilir. Açığı deyim ki, bu çox çətin bir məsələdir. İngiltərədə bu işi xeyrimizə həll etmək elə də asan deyil. Burada Cahangir Hacıyevin həbsdə olub-olmamasının heç bir önəmi yoxdur. Faktlarla sübut etmişik ki, bu pullar oğurlanıb, demək, əlavə nəsə deməyə lüzum yoxdur. Hamı yaxşı bilir ki, bütün bunlar Cahangir Hacıyevin səriştəsiz idarəçiliyi nəticəsində baş verdi. O, əlini stolun üstünə qoymalı idi ki, bu proseslər dayandırılsın. Amma tərsinə oldu. Proseslər getdikcə təhlükəli həddə çatdı. Nəticələr də göz qabağındadır. Milyardlarla məbləğin zərbəsi dövlətə, xalqa dəydi”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Avropadakı müxalifətçi azərbaycanlılar bir-birinə qarşı

## Partiya sədrindən və siyasi ekspertdən ilginc açıqlamalar

**Azərbaycan müstəqillik əldə etdikdən sonra azərbaycanlıların yaşamaq və işləmək üçün Rusiyadan sonra ən çox üz tutduqları Avropanın inkişaf etmiş ölkələridir. Qeyri-rəsmi məlumatlara görə, Avropa ölkələrində ümumilikdə 500 min nəfərə yaxın Azərbaycan vətəndaşı yaşayır.**

Xüsusilə son 10 ildə intensivləşən prosesin nəticəsində onların sayı bu qədər artıb. Avropaya gedən azərbaycanlıların bir qismi siyasi mühacir adı ilə, bir qisminin isə miqrant kimi getdiyi bildirilir. Onların sırasında kiçik bir qrupu internetin imkanlarından istifadə edərək Azərbaycan hökumətinə qarşı xeyli müddətdir kampaniya aparırlar. Lakin qeyd etdiyimiz kimi, onlar 500 minə yaxın azərbaycanlının çox cüzi hissəsidir. Maraqlıdır ki, həmin qrupun və onların çevrəsi sayılan bir sıra azərbaycanlıların Avropadakı digər soydaşlarımızla da münasibətlərinin yaxşı olmadığı, bir-birinə qarşı olduqları barədə məlumatlar gəlməkdədir.

**Yeni AXCP-nin sədri Razi Nurullayev “Yeni Müsavat”a bildirib ki, bu gün Avropada yaşayan bir sıra həmvətənlərimiz arasında populyarlıq, öncüllük, bir-birini qaralama, nüfuzdan salma və böyük resurslara çıxış mübarizəsi gedir. Buna görə də orada yaşayan həmvətənlərimiz arasında inam sıfıra bərabərdir:** “Birləşmək meylləri Azərbaycandakı meyldən dəfələrlə zəifdir. Bir səbəb var. Orada baş verən hadisələrin çoxunun senarisi Bakıda yazılır, yaxud Bakıdan körüklənir. Skandallarda adı hallanan adamlarla şəxsən bizim əlaqələrimiz yoxdur. Amma digər həmvətənlərmimizlə əlaqələrimiz var. Ona görə də müəyyən məlumatlara malik olmaqdayıq”.

**Avropa ölkələrinə tez-tez səfərlər edən siyasi ekspert Yeganə Hacıyeva da bildirdi ki, Avropada yaşayan azərbaycanlıların, əsasən də müxalifətyönlü vətəndaşlarımızın məskunlaşdıqları ölkələrdə də bir-biri ilə münasibətlərinin heç də yaxşı olmadığı, bir-birinə qarşı olduqları haqqında onda da məlumatlar var:** “Burada qeyd etmək istədiyim əsas məqam, Azərbaycandakı bir sıra müxalif siyasi partiyaların mühacir məsələsini alver predmeti etmələrinin, ölkə daxilində müxtəlif psevdo insan haqları müdafiəçilərinin mühacirət biznesinə qurşanması, saxta sənədlər əsasında, asan oturum imkanları təklif edən mühacirət ”paket"ləri təşkil etməsi üzündən Azərbaycandan siyasi mühacirət axını olması təəssüratı yaratmışdı.

Saxta siyasi səbəblərdən mühacirət etmiş şəxslərin Avropada da müəyyən siyasi qrupların təsiri altına düşməsi, piket, mitinq və sair kimi müəyyən tədbirlərdə iştirak etməyə məcburiyyət, sosial mediada sosial media “qəhrəmanlarının” təbliğatçısı olması tələbləri ilə üzləşməli haqqında dəfələrlə eşitmişik. Müxalifətyönlü vətəndaşlarımızın məskunlaşdıqları ölkələrdə bir-biri ilə pis olan münasibətlərinin, bir-birinə qarşı olmalarının başlıca səbəbi budur. Digər səbəblərdən biri də, əlbəttə, psixoloji amillərdir. Buna mühacirət edənlərin məskunlaşdığı, fərqli dini, mədəni, məişət və dəyərlər daşıyıcıları ilə bir düşərgələrdə yaşamasının yaratdığı fəsadlar deyə bilərik. Bu da, əlbəttə, yenə də siravi insanlarda onları mühacirət etməyə həvəsləndirən siyasi qruplara və onların simalarına nifrət hissinə çevrilir, insanlar ilk imkan düşən kimi bu hissləri büruzə verirlər".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**



# Fazil Məmmədovun Bakıya niyə qayıtmamasının səbəbi bilindi

## Həkimlər onun daha bir kurs müalicə almasını tövsiyə edib

**Türkiyədəki “American Hastanesi”ndə müalicəsini başa vuran eks-vergilər naziri Fazil Məmmədovun qardaş ölkədəki məşhur “Çırağan Palace”da istirahət etdiyi barədə bir müddət əvvəl xəbər vermişdik.**

Türkiyədəki mənbə onun bir neçə ay oteldə qalacağını vurğulayırdı. F.Məmmədovla bağlı əldə etdiyimiz sonuncu məlumata görə, sabiq nazirin səhhəti tam olaraq normallaşmadığından Azərbaycana qayıda bilmir. Belə ki, eks-nazir uzun müddət müalicə almasına baxmayaraq, tez-tez hərarəti qalxır. Həkimlərsə onun daha bir kurs müalicə almasını tövsiyə ediblər.(modern.az)

Xatırladaq ki, bir müddət Gəncə Beynəlxalq Hospitalında tibb elmləri üzrə fəlsəfə doktoru İlyas Həsənovun nəzarəti altında müalicə alan Fazil Məmmədovun sonrakı müalicəsinin Türkiyədə davam etdirilməsi qərara alınıb. F.Məmmədov Fransadan xüsusi sifarişlə gətirilən ambulans təyyarə ilə Türkiyəyə aparılıb. O, “American Hastahanesi”nin professorları Orhan Bilge və Mustafa Keremin nəzarətində olub.

Müayinələr zamanı Fazil Məmmədovda pankreatit aşkarlanmışdı.

Məlumat üçün bildirək ki, pankreatit mədəaltı vəzin iltihabi xəstəliyidir. Kəskin və xroniki pankreatit olmaqla iki yerə bölünür. Kəskin pankreatit zamanı iltihabi proses sürətlə bir neçə gün ərzində inkişaf edir. Bu adətən tamamilə heç bir iz buraxmadan keçib gedir. Bəzən isə xəstəlik çox təhlükəli olur. Xroniki pankreatit zamanı iltihab davamlı xarakter daşıyır və iltihabi proses daha yüngül xarakterli olur. 10 haldan 8-ində bu xəstəliyə səbəb öd daşları və spirtli içkidir. Digər səbəblərə az rast gəlinir.

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

# Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasını keçirdi

## Dövlət başçısı bildirib ki, Azərbaycanda sabitlik qorunur, möhkəmlənir və bu sabitliyin təməlində xalq tərəfindən dəstəklənən siyasət dayanır

**Oktyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**



2018-ci ilin 9 ayının yekunlarının uğurlu olduğunu, ilin əvvəlindən qarşıya qoyulan vəzifələrin icra edildiyini deyən prezident İlham Əliyev bu müddətdə ölkədə dinamik inkişafın təmin olunduğunu vurğulayıb. Prezident bildirib ki, Azərbaycanda sabitlik qorunur, möhkəmlənir və bu sabitliyin təməlində xalq tərəfindən dəstəklənən siyasət dayanır.

Bu il ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanındığını, qonşularla, həmçinin İslam ölkələri ilə əlaqələrin daha da genişləndiyini deyib. Dövlət başçısı Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın əhəmiyyətini vurğulayıb, bu sənəddə Azərbaycanın maraqlarının tam təsbit olunduğunu diqqətə çatdırıb.



Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri sənədində və NATO-nun zirvə görüşünün sonunda qəbul edilən Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstəyin ifadə olunduğunu deyən dövlət başçısı Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin mövqelərinin daha da gücləndiyini vurğulayıb. Dövlət başçısı münaqişənin həlli ilə bağlı Azərbaycanın bundan sonra da prinsipial mövqedə qalacağını diqqətə çatdırıb.

Prezident İlham Əliyev ölkəmizin hərbi qüdrətini artırmaqda davam etdiyini, bunu il ərzində Bakıda keçirilən hərbi paradların da göstərdiyini deyib.

Azərbaycanın iqtisadi uğurlarından danışarkən dövlət başçısı qeyd edib ki, islahatların dərinləşdirilməsi sahəsində il ərzində önəmli addımlar atılıb. Belə ki, bu il "Cənub Qaz Dəhlizi" açılıb, TANAP layihəsinin icrası başa çatıb, TAP layihəsinin icrasında da heç bir problem yoxdur.

Prezident Azərbaycanın təşəbbüsü ilə regionda icra olunan layihələrdən danışarkən ölkəmizin bütün prinsipial məsələlərlə bağlı öz mövqeyinin olduğunu da deyib.

Sonra vergilər naziri Mikayıl Cabbarov, rabitə, nəqliyyat və yüksək texnologiyalar naziri Ramin Quluzadə və "Azərxalça" ASC sədri Vidadi Muradov bu ilin 9 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə edib.

Prezident yekun çıxışında bildirib ki, gələn ilin büdcəsi investisiya və sosialyönümlü olacaq, iqtisadi sahədə, xüsusilə vergi və gömrük sahəsində islahatlar davam etdiriləcək. Qeyri-neft sektorunun inkişafı bu yaxınlarda orbitə buraxılan "Azerspace-2"nin imkanlarından səmərəli istifadə olunması, kənd təsərrüfatının inkişafının diqqət mərkəzində saxlanılması, iri fermer təsərrüfatlarının, aqro-parkların və sənaye parklarının yaradılması ilə bağlı tapşırıqlarını verən dövlət başçısı bir sıra kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı görülən işlərin sürətləndirilməsinin vacibliyini vurğulayıb. Sosial təminat sahəsində şəffaflığın təmin olunduğunu, şəhid ailələrinin, müharibə əlillərinin və məcburi köçkünlərin yeni mənzillərlə və avtomobillərlə təmin edildiyini deyən prezident əhalinin elektrik enerjisi ilə təminatı, yeni yolların çəkilməsi və içməli su layihələrinin icrası, meliorativ işlərin görülməsi ilə bağlı tədbirlərin həyata keçirildiyini bildirib. Prezident yeni təhsil və səhiyyə müəssisələrinin inşa olunduğunu, paytaxtda qanunsuz tikililərin qarşısının alındığı və şəhər nəqliyyatının təkmilləşdirildiyini diqqətə çatdırıb. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4-cü dövlət proqramının hazırlandığını deyən prezident burada görüləcək işlərlə bağlı konkret vəzifələrin əks olunduğunu bildirib. (*Yazı AZƏRTAC-ın https://video.azertag.az/video/67682 ttps://video.azertag.az/video/67682 videosu əsasında hazırlanıb*).

❑ **Musavat. com**

# Prezident İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev oktyabrın 9-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin yeni təyin olunmuş müşaviri Corc Kentin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.**



Virtualaz.org xəbər verir ki, dövlət başçısı ABŞ prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və "Cənub Qaz Dəhliz"inin rəsmi açılışı ilə bağlı göndərdiyi məktublarda Azərbaycan-ABŞ münasibətləri ilə əlaqədar ifadə etdiyi fikirlərə və xoş sözlərə görə minnətdarlığını bildirib.

Söhbət zamanı təhlükəsizlik sahəsində əməkdaşlığa toxunulub, ölkəmizin Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsi və ikitərəfli əsasda Əfqanıstan hökumətinə verdiyi dəstək yüksək qiymətləndirilib.

Görüşdə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olunub, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, ABŞ-ın "Cənub Qaz Dəhlizi" layihəsinə verdiyi dəstək xüsusi qeyd olunub.

Söhbət zamanı, həmçinin qeyri-neft sektoru, o cümlədən ticarət, informasiya texnologiyaları, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Agentlik Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə əməkdaşlıq edəcək

## Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb

**Oktyabrın 9-da Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb.**



Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçirilən tədbirdə çıxış edən baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ilk növbədə iki qurum arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətinə toxunub. O bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan siyasi, iqtisadi və institusional islahatların maliyyə intizamının gücləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsində dövlət orqanları və digər qurumlarla əməkdaşlıq çox əhəmiyyətlidir. K.Əliyev hazırkı sənədin imzalanmasının istər tərəflər arasında sahibkarlığın inkişafına əngəl törədə biləcək korrupsiya hüquqpozmalarının aşkar edilməsi və araşdırılması, istərsə də başqa əməkdaşlıq istiqamətləri kontekstindən əvəzsiz rola malik olduğunu bildirib. K.Əliyev yeni sazişin cəmiyyətin və dövlətin maraqlarına xidmət edəcəyindən əminliyini ifadə edib.

Həmçinin çıxışında sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin daha da gücləndirilməsi ilə bağlı prezident İlham Əliyevin Nazirlər Kabinetinin 8 iyul 2018-ci il tarixli iclası zamanı verdiyi göstəriş və tapşırıqları xatırladan K.Əliyev bu mühüm sahədə tərəflərin qanunla müəyyən edilmiş təlləblər səviyyəsində qurulacaq birgə fəaliyyətinin dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasına ciddi töhfə verəcəyini vurğulayıb.

**K. Əliyev həmçinin məlumat verib ki, cari ilin yanvar ayından bu günə qədər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə 3 min 7 müraciət daxil olub. Onun sözlərinə görə, onlardan 181-i özəl sektorla bağlıdır:** "Bunlardan 55-i mənzil-tikinti kombinatları ilə bağlıdır, qalanları isə digər müəssisələrin fəaliyyəti ilə əlaqədardır. 24 işin istintaqı yekunlaşdırılaraq məhkəmələrə göndərilib".

Daha sonra Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək, ölkəmizdə kiçik və orta biznesin inkişafını stimullaşdıran tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması və dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması kimi mühüm komponentləri əhatə edən əlverişli hüquqi zəmin və sağlam iqtisadi mühit yaradılmasının sevindirici hal olduğunu qeyd edib.

O qeyd edib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən mütərəqqi sosial-iqtisadi və hüquqi islahatlar çərçivəsində rəhbəri olduğu qurum qarşısında olduqca mühüm vəzifələr qoyulub. O.Məmmədov agentlik tərəfindən ölkədə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, onlara müvafiq xidmətlərin göstərilməsi, habelə dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsinin və tənzimlənməsinin həyata keçirilməsi zamanı qarşıya çıxa biləcək hər növ qanun pozuntularının qarşısının alınması yönündə Baş İdarə, eləcə də digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın bu sahənin inkişafına xidmət edəcəyini vurğulamış, birgə fəaliyyətyönümlü əlaqələrin daha da genişləndirilməsi üçün bütün səylərin səfərbər ediləcəyini bildirib.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

**Məlumat üçün qeyd edək ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bundan əvvəl AMOR, Qida Təhlükəsizliyi Agentliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə də memorandum imzalayıb.**

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

# "Baş lift"çiyə məhbəs qapıları göründü

## Qüdrət Şükürov barəsində əlavə cinayət işi başlanılıb; istintaqçılar onun keçmiş qudası Rəfael Əsgərovu şahid qismində dindirir

**Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan "Lift-Təmir" İstehsalat Birliyinin direktoru Qüdrət Şükürov barəsində əlavə cinayət işi başlanılıb". Bunu baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev oktyabrın 9-da keçirdiyi toplantıda deyib.**

Kamran Əliyev qeyd edib ki, onun barəsində Cinayət Məcəlləsinin 193-1 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə əlavə cinayət işi başlanıb. Hazırda istintaq tədbirləri davam etdirilir. Bundan başqa, "Lift-Təmir" İstehsalat Birliyində baş verən qanunsuzluqlarla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanılıb.



Rəfael Əsgərov



Qüdrət Şükürov

Q.Şükürovun adı ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozulması ilə müşayiət olunan korrupsiya cinayətində keçir. Bu il sentyabrın 15-də ABŞ-ın Qiymətli Kağızlar Komitəsi (SEC) "United Technologies Corporation" şirkətini 13 milyon 400 min dollar cərimələyib. Buna səbəb şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı Lift-Təmir İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsidir. ABŞ-da başlanan araşdırmaların Bakıda davam etdiriləcəyi də istisna olunmur.

Q.Şükürovun barəsində Cinayət Məcəlləsinin 193-1 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə əlavə cinayət işi başlanması da təsadüfi deyil. İstintaqçılar hazırda Qüdrət Şükürovun keçmiş qudası Rəfael Əsgərovu şahid qismində dindirir. Bu haqda "Yeni Müsavat"a istintaqa yaxın mənbələrdən daxil olan məlumatda deyilir ki, R. Əsgərovun dindirilməsi Q.Şükürovun "Lifttəmir"ə ayrılan büdcə vəsaitlərinin hansı banklardan, nə vaxt, hansı miqdarda çıxarıb hara aparması, hansı əmlakların alınmasına yönəltməsi haqda dolğun məlumatların protokollaşdırılmasına imkan yaradıb.

R.Əsgərov Q.Şükürovun "otkat"ları haradan, hansı yollarla alması haqda da bilgilərə malikdir. ABŞ-da bu qalmaqallı korrupsiya işi ilə bağlı araşdırmalardan xəbər tutunca böyük korrupsiya cinayəti ilə bağlı şahid qismində ifadə vermək üçün olduqca ciddi addımlar atıb. 2 həftə əvvəl o, ABŞ-ın ölkəmizdəki səfirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və baş prokurora sensasion məktub ünvanlayıb. O, şahid qismində ifadə vermək üçün Azərbaycan hüquq-mühafizə orqanları ilə yanaşı ABŞ-ın müvafiq dövlət qurumlarına da bildiyi və şahidi olduğu böyük korrupsiya qalmaqalı ilə bağlı məluma verməyə hazır olduğunu bəyan edib. Bundan sonra "Lifttəmir"də yol verilmiş qanun pozuntuları ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb. Zakir Qaralovun təqdimatı əsasında Q.Şükürov işdən qovulub. Eyni zamanda Baş Prokurorluğun istintaq qrupu "Lift-Təmir" İstehsalat Birliyində müvafiq yoxlamalara başlayıb. Belə xəbərlər var ki, işdən qovulandan sonra Q.Şükürov yaşadığı ünvanı tərk etməmək haqda xəbərdar edilib, ondan iltizam alınıb. Ötən sayımızda Q.Şükürovun mal-mülklərini Azərbaycan vətəndaşları İlqar, Aynur, Xuraman, Gumaş Ramazanovların adına keçirməsi haqda məlumatları da bölüşmüşdük. Aldığımız son məlumatlarda isə deyilir ki, İlqar Ramazanovla Qüdrət Şükürovun illərdir ki, əlaqələri var. İddia olunur ki, Qüdrət Şükürovun mal-mülkünü İlqar Ramazanovun, onun yaxınlarının adına rəsmiləşdirməsi təsadüfi deyil. Ramazanov Şükürovun "Binə" ticarət mərkəzindəki böyük biznesini idarə edir. Həmin biznesdə onların şəriklikləri olduğu deyilir. Şükürovla Ramazanovun toy-nişan məclislərində, ad günlərində də birgə görünmələri və tez-tez əlaqə saxlamalarının biznes münasibətlərinə söykəndiyi qeyd olunur.

Bəs Qüdrət Şükürov büdcə vəsaitlərini özününküləşdirib milyonluq korrupsiya əməliyyatı həyata keçirərkən ona nəzarət edən olmayıb? Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovun "Lift-Təmir"də baş verən milyonluq korrupsiya faktından xəbərsiz olduğu inandırıcı görünmür.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# XİN-in "qara siyahısı"nda yeni adlar

## Onların arasında "siyahı"ya təkrar düşənlər də var

**Xəbər verildiyi kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan oktyabrın 8-də bir qrup rusiyalı qadın ictimai xadimlə birlikdə Azərbaycanın işğal altındakı ərazilərinə, qoşunların təmas xəttinə gəlib. Anna Akopyan bu səfəri özünün "Qadınlar sülh naminə" sülhməramlı təşəbbüsü çərçivəsində təşkil etdiyini iddia edib.**

Akopyanın Azərbaycanın işğal olunmuş ərazilərinə təşkil etdiyi səfərdə Rusiya vətəndaşları olan "İnam" ("Vera") Beynəlxalq Xeyriyyə Fondunun təsisçisi Anna Federmesser, yazıçı Lyudmila Ulitskaya və "Qadın dialoqu" Partiyasının sədri Yelena Semerikova, Rusiya Dövlət Dumasının Beynəlxalq əlaqələr komitəsinin sədr müavini Svetlana Jurova və digərləri iştirak edib.

Ekspertlər hesab edir ki, onların bu addımı həm də Azərbaycan-Rusiya münasibətlərinə ziyan vurmaqdır. Sülhməramlılıq adı altında belə təbliğat heç bir baxımdan düzgün sayıla bilməz. Bu sayaq təşəbbüslər, bu addımı atanlar sülhməramlılıq və sülhsevərlik kimi xoşməramlı fəaliyyətlərə zərbə vururlar.




Artıq Azərbaycan Xarici İşlər Nazirliyi hadisə ilə bağlı açıqlama verib. Açıqlamada deyilir ki, sülh istəyənlər müharibəni davam etdirməməli, insan itkisinin qarşısını almaq istəyənlər digər dövlətin ərazilərini hərbi işğal altında saxlamamalı və nəhayət, qadınları və anaları sülhə dəvət edənlər şəxsən öz övladlarını Azərbaycanın beynəlxalq normalarla tanınmış ərazilərinə hərbi xidmətə göndərməməlidirlər. XİN açıqlamasında bəyan edib ki, Qarabağa icazəsiz gələnlərlə bağlı araşdırmalar aparılacaq: "Azərbaycan Respublikasının qanunlarını ciddi pozaraq ölkəmizin işğal edilmiş ərazilərinə qanunsuz səfər edən əcnəbi vətəndaşlara gəldikdə isə, hazırda onlarla bağlı məlumat araşdırılır və bu şəxslər müəyyənləşdirildikdən sonra onların adlarının ölkəmizə girişi arzu olunmayan şəxslər siyahısına əlavə edilməsi ilə bağlı müvafiq qərar qəbul ediləcək".

Qeyd edək ki, siyahıda müxtəlif dövlətlərin vətəndaşı olan 707 nəfərin adı var. Anna Akopyanla işğal olunmuş Azərbaycan ərazilərinə səfər edən Yelena Semerikova isə 2007-ci ildən bu siyahıdadır. Onun həmvətənlərinin bir qrupu törətdikləri eyni əmələ görə Azərbaycan XİN-in "qara siyahısı"na daxil edilmişdilər. Lakin bir müddət sonra peşmanlıq yaşayıb, Azərbaycandan üzr istəyənlər olmuşdu. Məsələn, Rusiya Liberal Demokrat Partiyasının liderlərindən biri Azərbaycanın işğal olunan ərazilərinə getdiyi üçün üzr istəyəndən sonra siyahıda çıxarılıb.

Rusiya Federasiyası vətəndaşı, "Sülh naminə musiqi" layihəsinin üzvü, musiqiçi Dmitri Uvarov Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş etmişdi. O, məktubunda 2015-ci ildə "Sülh naminə musiqi" layihəsi çərçivəsində Dağlıq Qarabağa səfər etdiyini, Azərbaycanın razılığı olmadan həmin əraziyə səfərin qadağan olunduğu və doğuracağı nəticələr barədə məlumatlı olmadığını yazmışdı. O, bu səfərin Azərbaycan Respublikasına və xalqına qarşı heç bir halda hörmətsizlik anlamı daşımadığını vurğulamışdı. Dmitri Uvarov Azərbaycan Respublikasının qanunlarına hörmət etdiyini qeyd edərək, sözügedən səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini vurğulamışdı. O, münaqişə nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, 20 mindən çox insanın həlak olduğunu qeyd etmişdi. D.Uvarov Bakıya səfər edib, işğaldan azad olunan Cocuq Mərcanlı kəndində "Sülh naminə musiqi" layihəsi çərçivəsində azərbaycanlı qaçqınlara xeyriyyə konserti vermək niyyətində olduğunu da vurğulamışdı.

Onunla birlikdə Rusiya vətəndaşı Mariya Nemtsova da belə bir məktubla Azərbaycanın rəsmi qurumlarına müraciət edib üzr istəmişdilər. Rusiya və İsrail vətəndaşı, blogger Aleksandr Lapşin də Azərbaycan ərazisinə qanunsuz daxil olduğu üçün 2017-ci ildə rəsmi Bakının tələbi ilə Belarusun paytaxtı Minskdə həbs edilmişdi. Bakıya gətirilib məhkəmə hökmü ilə bir müddət həbsdə qaldıqdan sonra Lapşin prezident İlham Əliyevdən, Azərbaycan xalqı və dövlətindən üzr istəmişdi. Bundan sonra azad edilmişdi.

**Politoloq Natiq Miri "Yeni Müsavat"a şərhində bildirdi ki, bu faktları Ermənistan baş nazirinin həyat yoldaşı ilə Azərbaycan ərazilərinə qanunsuz səfər edən Rusiya vətəndaşları unutmamalıdırlar:** "Onlar fərqində olmalıdırlar ki, adları XİN-in məlum siyahısına daxil edildikdən sonra Azərbaycanın ərazisinə qanunsuz daxil olduqları üçün barələrində cinayət işi də açıla bilər. Çünki buna Azərbaycanın tam hüququ var. Səhvlərini başa düşüb üzr istəyənlərin sayı çoxdur. Bu, onu göstərir ki, Lapşinin timsalında Azərbaycana qarşı hörmətsizlik edənlərə, səhvə yol verənlərə reallığı Bakıda da başa salmaq mümkündür. Hər kəs bilməlidir ki, Ermənistanın yalanlarına uyub Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmək hüquqi məsuliyyət daşıyır və məsuliyyətdən yaxa qurtarmaq elə də asan deyil".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Qızıl unitazlı "təmiz" kommunist

Samir SARI

**Uzun illərdir ki, sovet dövrünü ideallaşdıranlarla, yekə çıxmasın, qovğam var. Görəndə ki, onlar sosial şəbəkədə SSRİ dövrünü ideallaşdırır, tərifləyib göyə qaldırır, o vaxtlar rüşvətin, korrupsiyanın, ədalətsizliyin olmadığından dəm vurur, özümü saxlaya bilmirəm, bir şeylər yazıram.**

Çünki həyatımın bir hissəsini o dövrdə yaşamışam, həm də təkcə yaşamaqla kifayətlənməmişəm, təvazökarlıqdan Novodeviçye qəbiristanlığı qədər uzaq olsa da, deyim ki, həmin quruluşun alt və üst qatları ilə maraqlanmışam, təzadlarını görmüşəm, reallıqlarının şahidi olmuşam, iyrənclikləri ilə qarşılaşmışam.

Öncədən deyim ki, indiki ilə müqayisədə o vədələr rüşvətxorluq və korrupsiya quzu boydaydı, indi ən azı dəvə, fil, balina boydadır.

Əgər hələ də sovet dövrünü, kommunistlərin hakimiyyətini idealizə edənlər varsa, onlara saytımızda gedən "Qızıl unitazlı evdə özünü güllələyən katib - Traktorçuydu, Kremlə gəldi, milyonçu oldu" başlıqlı yazını oxumağı tövsiyə edirəm.

Bu yazıda söhbət sovet dönəminin ən "təmiz adamlarından biri" haqqında gedir. O, SSRİ dövründə nazir-filan olmayıb, sadəcə, iclas katibi olub. Mixail Georqadzenin vəzifəsinin adı beləydi: "SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi". Sədr başqasıydı. Səlahiyyət ondaydı. Katib isə protokol işinə baxırdı.

Amma siz gəlin adamın evindən çıxan varidata baxın: 20 kq qızıl və qiymətli daşlar, dəyəri milyonlara ölçülən rəsm əsərləri, o cümlədən Leonardo da Vinçinin əsəri, on milyonlarla rubl, dollar, funt-sterlinq, antik əşyalar...

Hələ bu hamısı deyil. Adamın tualetindən qızıl unitaz çıxıb. Qızıl unitaz... O da azı 20 kilo olar.

Amma bu barədə bir az informasiya qıtlığı var, bilinmir ki, qızıl unitaz işlək vəziyyətdə olub, yoxsa, ehtiyatda saxlanılırmış. Atalar əbəs yerə deməyib: "Neynirsən o qızıl unitazı ki...". Yox, deyəsən, atalar bunu teşt haqqında deyiblər. Amma bu kontekstdə o qədər də fərqi yoxdur.

Sonra da deyirlər, sovet dövründə vəzifə adamları təmiz işləyirdilər, sərvətləri yox idi. Əlbəttə, "Gelandevagen"ləri, "Maybaks"ları, "Mercedes-Pullman"ları yox idi, əvəzində "Volqa"ları vardı. Onlar da villalarda yaşayırdılar, amma dövlətin verdiyi villalarda. Tətilləri, səyahətləri də öz yerində. Heç demə, hətta qızıl unitazları da varmış.

Yadınızdadırsa, bir ara belə söhbət çıxmışdı ki, guya bizdə də nazirlərin birinin evində qızıl unitaz görüblər. Sonradan dedilər, yox, sadəcə, qızıl suyuna çəkilmiş unitazdır, amma düyməsi var, basırsan, adama analiz cavabı çıxarıb verir.

Sovet dövründə heç raykom katibləri də acından ölmürdülər. İndiki İH başçıları kimi olmasalar da, daldada bir şeyləri vardı, evlərində axtarış aparılanda yüzlük əsginas banderollarından ibarət çamadanlar çıxırdı. Hətta elə o vaxt danışırdılar ki, birinin bir neçə milyonu kifsəyib çürüyübmüş - qapalı və rütubətli yerdə qalmaqdan.

O dövrə aid bir şəhər əfsanəsi də danışırlar: bir raykom katibi fikir verir ki, adi işdə işləyən alt mərtəbə qonşusu iki-üç ayın içində özünü düzəldib, kostyumu dəyişib, maşın alıb, arvadı bər-bəzəkli gəzir və sair və ilaxır. Adam fikirləşir ki, bunu yoxlatdırsın və hüquq-mühafizə orqanlarına siqnal verir. Onlar da gəlib yoxlayırlar. Adam ilk şapalaqdan sonra etiraf edir ki, son aylardakı qazanc yerini çilçıraq asmaq üçün tavanı deşəndə tapıb, deşikdən qızıl tökülüb, o da yavaş-yavaş götürüb xərcləyib. Heç demə, raykom katibi qazandığı pulları qızıl şəklində ayağının altına, döşəmədə düzəltdirdiyi saxlanca yığırmış (*müəllif bu yerdə gülüş işarəsi olaraq çoxlu mötərizə qoymaq istəyir, amma yadına düşür ki, bura sosial şəbəkə deyil*).

Sözümün canı odur ki, bu coğrafiyanın adamları min illərdir ki, belədir. Kimin əlinə yüksək, yağlı vəzifə keçir, çalışır ki, yararlansın. Hər halda, çoxu belə edir. Etməyənlər də vardı, camaat onlara "Zakon" ləqəbi qoyub lağ edirdi.

Sadəcə, sovet vaxtı qapalı sistem idi, heç kəs açıq-aşkar oğurlaya bilmirdi, gizli-gizli, xımır-xımır oğurlayırdılar. Üstəlik, sosial şəbəkə də yox idi, məşhur oğrular haqqında status yazıb dilə-dişə salan olmurdu, eləcə, çayxanada danışırdılar.

**Azərbaycan Konstitusiya Məhkəməsi Plenumunun 2015-ci ildə baş vermiş devalvasiyaların xarici valyutada götürülmüş kreditlərə təsiri ilə bağlı qəbul etdiyi qərar hələ də cəmiyyətdə müzakirə olunmaqdadır. Bu günlərdə Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfovun qərarla bağlı xüsusi rəyi ictimaiyyətə açıqlanıb.**

# Dollar kreditləri ajiotajının arxasındakı sirr

## Problemin birdən-birə KM-in Plenumuna çıxması kimlərin marağında olub?



Qeyd edək ki, İ.Nəcəfov Konstitusiya Məhkəməsində qərarın əleyhinə səs verən yeganə hakimdir. O, öz rəyində məhkəmənin qərarının təsviri-əsaslandırıcı hissəsi ilə qismən razı olduğunu, nəticə hissəsi ilə isə razılaşmadığını bildirib: "Konstitusiyamızın 16-cı maddəsində qeyd edilmiş, "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır" və 149-cu maddədə göstərilmiş, "Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətlərə) əsaslanmalıdır" kimi müddəalara əsaslanaraq, qanunverici ictimai münasibətlərdə belə halları, o cümlədən milli valyutanın devalvasiyası riskinin yüksək olmasını nəzərə alaraq, zənnimizcə, 422-ci maddəni Mülki Məcəlləyə daxil etmişdir.

Digər tərəfdən, sahibkarlıq fəaliyyəti ilə əlaqədar verilmiş kredit borclarını ipoteka borclarından fərqləndirmək lazımdır. Sahibkar daşınmaz kapitala sahib olduğu halda, mənzil almaq üçün ipoteka borc müqaviləsinə girənin daşınmaz kapitalı yoxdur".

**İ.Nəcəfov qeyd edir ki, kredit münasibətləri bazar iqtisadiyyatında gündəlik iqtisadi münasibətlərdə hakim yer tutan münasibətlərdir:** "Pul vahidinin məzənnəsinin sabitliyi, eləcə də iqtisadiyyatı inkişaf etmiş ölkələrdə mütəmadi qalxıb düşməsi maliyyə şəraitinin göstəricisidir. Və insanların həyat səviyyəsi bundan çox asılıdır. Milli valyutanın kəskin düşməsi həyat səviyyəsinin aşağı düşməsidir.

Məhkəmələrdə baxılan işlərin sayı barədə statistik məlumatları, eləcə də müflisləşmə nəticəsində 12 bank şəbəkəsinin bağlanmasını, əməkdaşlarının işsiz qalmasını, on milyardlarla bank kapitalının geri qaytarılmamasını nəzərə alsaq, haqlı olaraq qeyd edərik ki, manatın devalvasiyası şəraitinin əhəmiyyətli dərəcədə dəyişməsidir. Və vətəndaş bu halda bağladığı ipoteka müqaviləsinin dəyişdirilməsi və ya ləğv edilməsi ilə əlaqədar Mülki Məcəllənin 422-ci maddəsinə əsasən məhkəməyə müraciət etməkdə haqlıdır".

Maraqlıdır ki, devalvasiyalardan sonra xeyli müddət aktual olan problemli kreditlər, xüsusilə də onun böyük əksəriyyətini təşkil edən xarici valyutada olan kreditlər məsələsi son zamanlar demək olar ki, gündəmdən çıxmışdı. Prezident seçkiləri öncəsi məsələyə dövlətin müdaxiləsinin olacağına dair bəzi gözləntilər səsləndirilsə də, onların reallaşmaması müzakirələrin də əsasən dayanmasına səbəb olmuşdu. Bu baxımdan, Bakı Apelyasiya Məhkəməsinin Konstitusiya Məhkəməsinə müraciəti geniş rezonansa və məsələnin məhz kredit götürənlərin xeyrinə həll olunacağına dair ümidlərin yenidən baş qaldırmasına səbəb oldu. Çünki müzakirələrin bitdiyi bir vaxtda problemin ən yüksək məhkəmə instansiyasında yenidən qaldırılması gözlənilməz oldu.

Bu gözlənilməz addımın arxasında böyük maraqların dayandığı isə çoxlarına bəlli deyil. Belə ki, problemli kreditlərin əksəriyyətini bank rəhbərlərinə, inzibatçılarına bu və ya digər dərəcədə yaxın olan şəxslərə verilmiş məbləğlər təşkil edir. Çox böyük həcmdə kreditlər demək olar ki, girov təminatı olmadan aşağı faiz və uzun müddətə müxtəlif şəxslərə paylanıb. İndi isə banklar qanuni yollarla həmin kreditləri geri ala bilmirlər. Əldə etdiyimiz məlumata görə, bir çox banklar indiyədək buna ciddi əhəmiyyət də verməyiblər: dövlətin əvvəl-axır o kreditlərin mühüm bir hissəsini üzərinə götürəcəyini gözləyiblər. Məlumdur ki, Azərbaycanda bankların əksəriyyəti yüksək vəzifəli məmurlara bağlıdır, yaxud onlar tərəfindən himayə olunur. Məhz bu himayədarlar vasitəsilə bir çox banklar təminatsız payladıqları pulları dövlətdən almaq niyyətində olublar. Məsələnin birdən-birə Konstitusiya Məhkəməsinin Plenumuna çıxmasının arxasında da bankların himayədarlarının dayandığı bildirilir: qaytarılmayan kreditlərin xeyli hissəsi məhz onların yaxın çevrəsində olan şəxslərə verilib.

**Hüquqşünas Əkrəm Həsənov hesab edir ki, xarici valyutada götürülmüş kreditlərlə bağlı məhkəmələrdə işlər çoxaldığı üçün Apelyasiya Məhkəməsinə müraciətlər də artıb:** "Bu baxımdan, ilk baxışdan Apelyasiya Məhkəməsinin Konstitusiya Məhkəməsindən şərh istəməsi normaldır. Lakin hesab edirəm ki, hansısa məsələnin Konstitusiya Məhkəməsinə çıxarılması sadə vətəndaşların istəyi ilə reallaşmayıb. İlk dəfə 2015-ci ildə bu məsələyə baxılanda da təşəbbüskar banklar idi. Çünki əhali devalvasiyalardan sonra dollar kreditləri üzrə ödənişləri tam dayandırmışdı. İndi də düşünürəm ki, banklardan irihəcmli pul götürən dairələr maraqlı olublar məsələnin Konstitusiya Məhkəməsinə çıxarılmasında. Mənim müşahidə etdiyim tendensiya belədir ki, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevi çıxmaq şərtilə, Azərbaycanda heç kəsi bankdan qanunsuz kredit vermə halına görə cəzalandırmırlar. Təsəvvür edin ki, son vaxtlar AccesBank kütləvi şəkildə hüquq-mühafizə orqanlarına öz sahibkar borclularının adlarını göndərir. Deyir ki, bunlar məndən qanunsuz kredit götürüblər. Vermişəm yox, məhz alıblar. Hüquq-mühafizə orqanları da həmin şəxslərə qarşı cinayət işləri qaldırıblar, artıq bəzi şəxslər həbs olunub. Cinayət Məcəlləsinin 195-ci maddəsinə görə qanunsuz kredit alma maksimum 5 il müddətində azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu belə bir haldır ki, sahibkar bilə-bilə banka yalan məlumat verir və kredit alır. Amma məsələ burasındadır ki, bunu bir nəfər belə etsin, beş nəfər etsin. AccesBank isə onlarla belə işi illər sonra göndərib hüquq-mühafizə orqanlarına. Burada bir sual yaranır ki, bu qanunsuz kreditləri kim verib? Axı burada bankın səlahiyyətli şəxslərinin də əli var. Bu, çox pis presedentdir. Bu, onu göstərir ki, hüquq-mühafizə orqanları belə halları daha çox birtərəfli araşdırır. Məndə olan məlumata görə, bir sıra sahibkarlar banka yalan məlumat-filan verməyiblər. Sadəcə, bankların öz sənədlərində problemlər olduğu üçün indi məhkəməyə müraciət edə bilmirlər, çalışırlar başqa yollardan istifadə etsinlər. Ümumiyyətlə, ölkəmizdə banka pul qoyanı da peşman edirlər, ondan pul alanı da. Belə çıxır ki, banklar hər bir halda haqlıdılar"...

**Hüquqşünasın dediyinə görə, mövcud problemli kreditlərin əksəriyyəti istehlak krediti kimi rəsmiləşdirildiyi üçün əhalinin payını müəyyənləşdirmək çətindir:** "Azərbaycanda belə bir statistika açıqlanmır. Lakin açıqlansa belə, banklar əksər hallarda böyük məbləğdə verdikləri kreditləri də biznes krediti kimi deyil, istehlak krediti kimi rəsmiləşdiriblər. Bu baxımdan, statistika açıqlansa belə, problemli kreditlərin tərkibində biznes kreditlərinin payı maz görünəcək. Son illərdə bağlanan banklar üzrə araşdırmalarıma əsasən deyə bilərəm ki, problemli kreditlərin ən çoxu 20 faizi sadə əhalinin, daha 20 faizi həqiqi sahibkarların ola bilər. Qalan 60 faiz əksər hallarda qanunsuz, girov təminatı olmadan, cüzi faizlə uzun müddətə bank çevrələrinə yaxın şəxslərə verilmiş kreditlərdir. Bir misal gətirim ki, bağlanarkən Beynəlxalq Bankdan sonra Azərbaycanın ikinci böyük bankı olan "Standard Bank"da 60 faiz kreditlər belə verilib. Heç bir girovu olmadan milyonlarla dollar kredit verilib. Bu statistika bütün bunlar üçün keçərlidir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

# Ziya Məmmədov oğlunu Londondan qaçırıb

**Britaniyanın Milli Cinayət Agentliyi bu ölkədə sığınacaq tapmış Azərbaycan oliqarxlarının əmlakını diqqətlə araşdırmaqda davam edəcək; bəs Məmmədovlar İngiltərədəki əmlaklarını xilas edə biləcəklərmi?**

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri, 15 il həbs cəzası almış Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın Londonda dəyəri 28.5 milyon dollar olan elit malikanəsini məhkəmə qərarı ilə müsadirə etməsi bu ölkədə çirkli pulların yuyulmasına qarşı sərt mübarizənin başlandığını göstərdi.**



Maraqlıdır ki, Böyük Britaniyada çirkli pulların yuyulmasına qarşı mübarizə qanunu çərçivəsində xarici vətəndaşlar tərəfindən korrupsiya yolu ilə əldə edilmiş əmlakın müsadirəsinə dair ilk qərar azərbaycanlı oliqarxın ailəsinə qarşı verilib. Bu, həm də o anlama gəlir ki, Britaniyanın Milli Cinayət Agentliyi ("National Crime Agency") bu ölkədə sığınacaq tapmış digər Azərbaycan oliqarxlarının işini də diqqətlə araşdırmaqda davam edəcək. Bu sırada isə ilk ağıla gələnlərdən biri sabiq nəqliyyat naziri Ziya Məmmədov və onun oğlu Anar Məmmədovdur.

Məlumdur ki, A.Məmmədov iki ilə yaxındır ki, Azərbaycanı tərk edib və Bakıya hələ də bilinməyən səbəblərdən qayıtmır. Məmmədovların Avropanın bir sıra ölkələrində biznesləri olduğu təzə xəbər deyil. Bir vaxtlar çox qüdrətli biznes imperiyasının əsas gücü Məmmədovların "Garant Holdinq"i idi. İqtisadiyyatın mühüm sahələrini əhatə edən bu holdinq vasitəsilə yüz milyonlarla vəsait həm də ölkə xaricində müxtəlif əmlakların alınmasına yönəldilirdi. Üstəlik, Məmmədovlar bu illər ərzində Avropada müxtəlif adlarla şirkətlər yaradıblar ki, indi onların bəziləri hələ də fəaliyyət göstərir.

Britaniyada Məmmədovların "BROOKWOOD INTERNATIONAL IIMITED" şirkəti olduğu rəsmi mənbələrlə təsdiqlənmiş məlumatdır. Şirkətin təsisçisi və direktoru A.Məmmədovdur. Şirkətin yerləşdiyi özəl mülkiyyət isə A.Məmmədov tərəfindən hələ bir neçə il bundan əvvəl 2 milyon 700 min funt sterlinqə alınıb. Bir il əvvəl isə Məmmədovlar bu malikanəni 9 milyon 500 min funta satışa çıxarmışdılar. Malikanənin yerləşdiyi küçə Londonun bahalı ərazilərindən hesab olunur. Malikanəni satılıb-satılmadığı məlum



İngiltərə bir neçə il bundan əvvələdək oliqarxlar üçün cənnət sayılırdı və bu ölkəyə yönləndirilən pulların mənbələri ilə rəsmi London maraqlanmırdı. Amma dünyada çirkli pulların yuyulmasına göz yuman ölkə kimi tanınması Britaniyanı narahat etməyə başladı. İlk dəfə Zamirə Hacıyevaya tətbiq edilən həmin qanun əslində təxminən iki il əvvəl qəbul edilib, amma indi işləməyə başlayıb. Güman ki, varidatının mənbəyi şübhəli deyil. Bilinən həm də budur ki, Məmmədovların rusiyalı və səudiyyəli oliqarxlarla Britaniyada şərikli daha bir neçə şirkətləri var. A.Məmmədov son olaraq ölkəni tərk etdikdən sonra onun Londondakı çox bahalı "One Hyde Park" yaşayış kompleksində mənzil aldığı xəbəri də yayılmışdı ki, bu günədək də təkzib olunmayıb.

Məmmədovlar ailəsinin xaricdə nə qədər əmlakı olduğuna dair dəqiq bilgi yoxdur, amma güman edilir ki, bu əmlak və şirkətlərin dəyəri bir neçə milyardla hesablana bilər.

olan bir neçə oliqarxın adı da artıq "qara siyahı"ya salınıb. Bu sırada isə Məmmədovların olacağı gözləniləndir. Qeyd edək ki, sözügedən qanunla Böyük Britaniyanın nəzarət orqanlarına 70 min dollardan yuxarı dəyəri olan şübhəli aktivlərə sahibi həmin pulun mənbəyini lazımi qaydada izah etməyənə qədər həbs qoymağa imkan verir. Britaniyanın Milli Cinayət Agentliyinin hələ 2016-cı ildə yaydığı hesabatda bildirilirdi ki, Londonu çirkli pulların yuyulması və qanunsuz daşınmaz əmlakın alınması mərkəzinə çevirən şirkətlər və dövlətlər arasında Azərbaycanın da adı var.

Yada salaq ki, hələ Z.Hacıyevaya qarşı məhkəmə qərarından əvvəl belə məlumat yayılmışdı ki, A.Məmmədov son aylar Londona az-az gedir, əsasən Türkiyəyə yerləşib. Keçmiş nəqliyyat nazirinin öz ailə biznesinin əhəmiyyətli hissəsini Türkiyəyə daşıması prosesi "vurulmamışdan" əvvəl başlamışdı. Hələ nazir işlədiyi dönəmdə Məmmədovlar Türkiyədə hotel, nəqliyyat və neft daşımaçılığı, o cümlədən sərnişindaşıma ilə məşğul olan bir neçə şirkət yaratmışdılar.

Z.Məmmədov oğlundan fərqli olaraq "dəyişiklik ruzigarından" tez duyuq düşə bilər. Ola bilsin ki, Londondan çıxmaq da sabiq nazirin qərarıdır. Amma bəs Londondakı əmlakları xilas etmək necə, mümkün olacaqmı?

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Bakıda liman tikən şirkət borc dənizində niyə batdı - "Evrascon" ASC çətin durumda

**"Avro-Asiya İnşaat Korporasiyası Evrascon"un maddi vəziyyətinin kritik həddə qədər pisləşdiyi deyilir; Abid Şərifovun himayə etdiyi və şərik olduğu ASC-nin hazırda qürub çağı yaşadığı bildirilir**

**Azərbaycanın ən böyük inşaat şirkətlərindən biri olan "Avro-Asiya İnşaat Korporasiyası Evrascon" ASC-nin üzləşdiyi maliyyə çətinlikləri davam edir. Bu barədə redaksiyamıza məlumat verən mənbənin dediyinə görə, şirkətdə əmək haqları aylarla verilmir, yubanma 4-5 aya çatır: "Son aylarda yüzlərlə işçi ixtisara salınıb, hamıya layihələrin bitdiyi, yenilərinin olmadığı deyilir. Hətta deyirlər, bəzi layihələrdə iş yarımçıq saxlanılıb, iş şirkətdən alınıb".**

Mənbənin verdiyi məlumata görə, "Evrascon" ASC-nin Dövlət Sosial Müdafiə Fonduna külli miqdarda borcu yığılıb: "Xəstəlik kağızı alan işçilər üçün ödənişlər aylarla verilmir. Pensiya Fonduna müraciət edəndə deyirlər ki, şirkət aylardır ödənişləri ləngidir, ona görə də fond onun işçilərinin ödənişini vaxtında edə bilmir".

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandıran "Evrascon" ASC Direktorlar Şurasının üzvü Namiq Kərimli bildirdi ki, həqiqətən də əmək haqlarının ödənişində müəyyən çətinliklər var:** "Etiraf edək ki, bu sahədə müəyyən geriləmə var. Elə bu gün işçilərin əmək haqları kartlarına köçürülüb. Ondan sonra harada-sa 2 aylıq əmək haqqı borcumuz var".

**İxtisarlara gəlincə, N.Kərimli qeyd etdi ki, söhbət bir sıra başa çatmış layihələrin icrasına müvəqqəti cəlb olunmuş işçilərdən gedir:** "Məsələn, Ələt dəniz limanının tikintisi başa çatdı. Ora müvəqqəti əsaslarla cəlb etdiyimiz işçilərlə müqavilələrin müddəti başa çatıb. Haradasa 2 min nəfərə yaxın adam işləyirdi orada. Bakı-Astara yolunun tikintisi də demək olar ki, yekunlaşıb. Bu layihələrdə işləyən mütəxəssisləri digər layihələrə yönləndirmişik, qalanlarla işi dayandırmışıq".

**N.Kərimlinin dediyinə görə, "Evrascon" hazırda iki dövlət əhəmiyyətli layihənin icrasına başlayıb:** "Bunlardan birincisi Azərbaycan-Rusiya sərhədində DSK adlı yerdə körpünün tikintisidir. Digəri isə Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun 60 kilometrini biz inşa edirik. Hazırda bu layihələrin icrası istiqamətində ciddi iş gedir".

**DSMF-yə borcun yığılmasına gəlincə, şirkət rəsmisi bunun yanlış olduğunu qeyd etdi:** "Bizim dövlət qurumlarına hər hansı borcumuz yaranan kimi hesablarımıza sərəncam qoyulur. Sosial Müdafiə Fonduna da həmçinin. Bizim bu quruma borcumuz yığılmayıb, bu, həqiqətə uyğun deyil".

Xatırladaq ki, Ələtdə yeni və müasir tipli dəniz limanının tikintisi ilə bağlı işlərə 2007-ci ildən başlanıb. Ötən illər ərzində tikinti işlərində xeyli ləngimələr qeydə alınıb. Belə ki, hələ 2008-ci ildə sabiq nəqliyyat naziri Ziya Məmmədovun mətbuata verdiyi açıqlamada limanın birinci mərhələsinin 2008-2011-ci, ikinci mərhələnin 2011-2013-cü, üçüncü mərhələnin isə 2013-2015-ci illəri əhatə edəcəyi, tikinti işlərinə bütövlükdə təqribən 400 milyon ABŞ dolları sərf olunacağı bildirilmişdi. Liman kompleksi akvatoriyasında dibdərinləşdirmə işləri istisna olmaqla, bütün işlər "Evrascon" ASC-yə həvalə olunub. Lakin işlər ciddi şəkildə yubanıb, ona çəkiləcək xərclər də artıb. 2008-ci ildə elan edilən 400 milyon dollar (təxminən 300-320 milyon manat) 2012-ci ildə 870 milyon manata çatıb. ASC-nin İdarə Heyətinin sədri Manaf Şirinov özü də Ələt Limanının tikintisi ilə bağlı işlərdə problem yarandığını təsdiq edib. O, 2015-ci ilin yekunları ilə bağlı səhmdar cəmiyyətin səhmdarlarının yığıncağında bildirib ki, limanın tikintisi ilə bağlı 2014-cü il üçün görülən işlərə sərf olunacaq 50 milyon manatı ona büdcədən 2015-ci ilin may-iyun aylarında ödəyiblər. Bu üzdən də ASC layihə üzrə işləri davam etdirmək üçün dollar və avro ilə kreditlər götürüb.

**2017-ci ilin yanvarında hökumət müşavirəsindəki çıxışında ölkə prezidenti İlham Əliyev Ələt limanının tikintisindəki yubanmanı kəskin tənqid edib. Bildirib ki, tikintinin birinci mərhələsinin başa çatması ilə bağlı qrafikə əməl olunmayıb:** "Bəzi icraçılar bu məsələyə çox laqeyd yanaşmışlar, baxmayaraq ki, dövlət vəsaiti ayrılıb, 2016-cı ildə o vəsaitdən tam istifadə edilməyib. Bu, dözülməzdir. Ona görə əgər o məsuliyyəti dərk etmirlərsə, əgər dövlətin verdiyi sifarişi yerinə yetirməyə laqeydlik göstərirlərsə, bundan sonra dövlət sifarişlərindən məhrum ediləcəklər, qoy bunu bilsinlər. Ona görə bu ilin payızına qədər Ələt Beynəlxalq Dəniz Limanının birinci mərhələsi bütün avadanlıqlarla, kranlarla təmin edilməlidir, əks halda, özlərindən küssünlər".

Prezidentin çıxışından sonra Ələt limanının tikintisinə nəzarət Nəqliyyat Nazirliyindən alınaraq İqtisadiyyat Nazirliyinə verilib və bundan sonra işlər sürətləndirilib.

Qeyd edək ki, "Evrascon" ASC-nin baş nazirin sabiq müavini Abid Şərifova bağlı olduğuna dair mətbuatda çoxsaylı məlumatlar yer alıb. Hətta A.Şərifovun həyat yoldaşı Sədayə Yaqub qızının "Evrascon" ASC-nin səhmlərinin 22 920 ədədinin (nizamnamə kapitalının 12,15 faizi) mülkiyyətçisi olduğu deyilir. A.Şərifovun vəzifədən uzaqlaşdırılması ilə şirkətin vəziyyətinin də pisləşdiyinə dair informasiyalar dolaşmaqdadır. Hətta bu ilin iyulunda şirkətin İdarə Heyətinin sədri Manaf Şirinov prokurorluq orqanları tərəfindən həbs edilib. Bununla bağlı Baş Prokurorluğun yaydığı məlumatda həbsin qum-çınqıl yataqlarından qanunsuz istifadə, qanunsuz sahibkarlıq və sairlə bağlı olduğu qeyd edilib. Əldə etdiyimiz məlumata görə, M.Şirinov qısa müddətdən sonra həbsdən azad olunub, hazırda "Evrascon" ASC-dəki işinin başındadır.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**



# Bizim tısbağa

Zamin HACI
zaminhaci@gmail.com

**(Heyvanlar haqda 2-ci yazı)**

**Öncə bu temaya çoxdan baş vurmaq istədiyimi bildirməliyəm. Bunun üçün ilk növbədə köhnə dostum, riyaziyyatçı alim və gözəl publisist İsmixan Yusubova minnətdaram. İsmixan müəllim 1990-cı ildə Qarabağ münaqişəsinin tarixi haqda yazdığı "Latış dostuma məktub" kitabı ilə xalq hərəkatında məşhurlaşmışdı. BDU-da, Türkiyənin iki universitetində riyaziyyatdan dərs deyib. Bir neçə il qabaq İsmixan müəllim "Anlatmanın əzabı, sevinci və kədəri" adlı kitabını mənə bağışlamışdı. Orada riyaziyyatla yanaşı həyatın müxtəlif mənzərələrindən də maraqlı yazılar vardı. Bir yazı qarışqalar haqda idi. İsmixan müəllim Sakaryada universitetin binasına gedən yolun üstündə bir qarışqa yuvası tapıb onların həyatını xeyli müşahidə eləmişdi. Kitabda təbiət haqda başqa yazılar da vardı. Mən də düşünmüşdüm, kaş bizdə belə yazılar çox olardı.**

Gələk indi bizim tısbağanın yanına. Onun da bizim ailənin bir üzvünə çevrilməsində (ötən yazımdakı dağsiçanı kimi) oğlum rol oynadı. Heyvanat dükanından alıb gətirdik, bu, ovuca yerləşən balaca bir quru tısbağası idi. Burada heyvansevərlərə bir arayış verim ki, quru tısbağası şəhərdə, evdə saxlamaq üçün ən ideal canlıdır, çünki xüsusi xərc, baxım tələb eləmir, ən əsası isə ondan tipik heyvan qoxusu gəlmir - hamımız darısqal mənzillərdə qalırıq, onun bir köşəsindən zoopark və sirkə məxsus tipik iyin gəlməsinə çox adam dözmür. Oğlum buna dərhal "Qapaqlı" adı verdi, bir ailə "Dədə Qorqud"u olaraq çox da özünü əziyyətə salmadığını yazmalıyam - tısbağa üçün bundan orijinal ad? Təbii ki, bunun yemək-içməyi ilə məşğulluğu da uzağı bir həftə çəkdi, indi tısbağa bəyə də mən baxıram. Etiraf edim, tısbağa quzu balası kimi boğazını uzadıb əlimdən kələm, xiyar qırıqlarını alanda, çox xoşuma gəlir (*bu məqamlarda Haqverdiyevin əsərləri əsasında çəkilən "Papaq" filmindəki Lal Hüseynə bənzədiyimi fikirləşib, gülümsəyirəm*).

Ancaq tısbağa evdə çox qalmadı, çünki daim işıqdan, səsdən narahat şəkildə var-gəl edirdi. Həyətə buraxdım. Hər gün onu darvazanın ağzından təpəsi üstdə çevrilmiş tapırdım. Qaçmaq, azadlıq istəyirdi. Yeri gəlmişkən, indi telefonlar üçün bir maraqlı app var, iNaturalist adlanır. Bunu telefonunuza yükləyin, rast gəldiyiniz və adını bilmədiyiniz heyvanların, bitkilərin şəklini çəkin, proqram sizə onu tanıtsın. Həmin proqramla tısbağamızın cins olaraq "Avropa quru tısbağaları"na aid olduğunu öyrənəndə sevinmişdim. Nə də olmasa bir avropalı canlımız var, bəlkə də bu tısbağa bizim Avropaya yolumuzda mənə yoldaşlıq etmək üçün taleyin göndərişi idi. Avropanın yaxşısını götürüb, pisini zad eləməliyik...

Sonra qış gəldi, tısbağa öldü. Zarafat edirəm, ancaq haradasa ölümə bənzər bir hadisə olmuşdu - tısbağa qış yuxusuna getmişdi. Doğrusu, o çağacan tısbağaların da qış yuxusuna getdiyini bilmirdim. Sən demə, soyuqqanlı heyvan olduğu üçün tısbağanın bədən temperaturu ətrafdan fərqlənmir. Hava 30 dərəcədirsə, o da 30 olur, 0 dərəcədirsə, onun da bədəni 0 olur və sairə. Tısbağamız bütün qışı onu gizlətdiyim ot-əncərin altında keçirtdi, yazda hava qızanda bir də baxdım ortalıqda dolaşır.

Heyrətamiz mexanizmdir. Biz insanlar da özümüzü təkamül zəncirinin zirvəsi sayırıq. Təsəvvür elə, Azərbaycanda yaşayış pisləşəndə harasa çəkilib yuxuya gedirsən, bir də demokratik ölkə qurulanda oyanırsan... Görəsən, tısbağanın içindəki o temperatur mexanizmi, Günəş saatı necə qurulub ki, bu heyvan yaz gələndə oyanır? Əsl möcüzə budur. Tısbağamızın belində ərəb əlifbası ilə yazılar oxudum... Zarafatdır bu da, qorxmayın. Bəlkə elə bu daim təkrarlanan "ölüb-dirilmə"ni gördükləri üçün qədim çinlilər, yaponlar, bir çox şərq xalqları tısbağanı qutsal, müqəddəs heyvan sayıblar. Reinkarnasiya üçün bundan yaxşı model, örnək olarmı?

Üstəlik, ev-eşik dərdi çəkmirsən, ipoteka, kirayə haqqı, xozeyin-zad düşünmürsən. Evin də özünsən, nəyin varsa özündədir. Bu fani dünyada harasa tələsməyin mənasızlığını anlayırsan. Tısbağa canlı olaraq həddən artıq mükəmməldir. Mənim ona paxıllığım tutur. Klaustrofobiyam olsa da, növbəti həyatımda tısbağaya çevrilmək istərdim.

# Ermənistandakı antirus inqilabının "memarı" İrəvandan gedir

## İşğalçı ölkədə ilk dəfə Rusiyaya "əlcək atan" ABŞ səfirinin missiyası başa çatır; Riçard Milz gedərkən Paşinyana vəd verdi: "Dostunuz olaraq qalacam..."; onun xələfi Ermənistana hansı təlimatlarla gələcək?..

**Ermənistanda 8 may "məxməri inqilabı" hələ ki öz əsas hədəfinə çatmasa da, artıq "cin" şüşədən çıxıb - işğalçı ölkə uğrunda Rusiya-ABŞ rəqabəti həlledici və amansız fazasına girib. Bu dönəmin nə qədər sürəcəyi yəqin ki, komandasını müstəsna olaraq, "Amerika uşaqları"ndan quran Nikol Paşinyanın öz əsas rəqibləri - Rusiyaya bağlı "Qarabağ klanı"nı nə dərəcədə neytrallaşdıracağından asılı olacaq.**

Paşinyan bu hədəfi açıq dilə gətirməsə də, Rusiyaya, Vladimir Putinə ünvanlı sədaqət bəyanatlarını davam etdirsə də, artıq heç kəsdə, o cümlədən Rusiyadakı rəsmi və qeyri-rəsmi, analitik çevrələrdə şübhə qalmayıb ki, onun yekun hədəfi Ermənistanı Kremlin orbitindən uzaqlaşdırmaq və Qərbə - ABŞ-a və Avropa Birliyinə yaxınlaşdırmaqdır. N.Paşinyanın ABŞ-ın İrəvandakı səfiri Riçard Milzlə dünənki son görüş buna şübhə yeri qoymur.



*****

"Yeni Müsavat"ın 1 in.am erməni portalına istinadən verdiyi məlumata görə, görüşdə ölkədəki son ictimai-siyasi durum, o sırada növbədənkənar seçki məsələsi ətrafında gedən proseslər və ikitərəfli əlaqələrin sonrakı perspektivi müzakirə edilib. Həmin görüşdə Paşinyan bəlkə də özü də bilmədən Rusiyanı qıcıqlandıran etirafda bulunub.

Belə ki, baş nazir səfirə öz postundakı fəaliyyətinə, o sırada Ermənistan-ABŞ əməkdaşlığını möhkəmlənməsinə verdiyi "böyük töhfəyə", habelə Ermənistanda baş verən "məxməri inqilab" zamanı obyektiv mövqe tutduğuna görə təşəkkürünü bildirib, ABŞ-ın hakimiyyət dəyişikliyi ilə yadda qalmış prosesə dəstəyi etiraf edib. "Şübhəsiz ki, inqilabdan sonra ABŞ Ermənistanın ən əhəmiyyətli müttəfiqlərindən birinə çevrilib. Ümid edirəm ki, dəstəyinizi bundan sonra da davam etdirəcəksiniz" - Paşinyan söyləyib .

Amerikalı səfir bu sözlərin qarşısında borclu qalmayıb. O, konstruktiv əməkdaşlığa görə baş nazirə minnətdarlığını bildirib və əlavə edib ki, Ermənistanın dostu olaraq qalacaq və Ermənistanla, erməni xalqı ilə əlaqələri kəsməyəcək. "Əminəm ki, yaxın illərdə əlaqələrimiz daha da möhkəmlənəcək. Hazırda Ermənistanın tarixində həlledici dönəmi yaşayan erməni xalqına və sizə uğurlar arzu edirəm", - deyə amerikalı diplomat sözünə əlavə edib.

*****

Qeyd edək ki, Riçard Milz bir neçə gündən sonra İrəvandan gedəcək. Onu bu postda kimin əvəzləyəcəyi hələlik məlum deyil. Ola bilsin, ABŞ Azərbaycanla eyni vaxtda Ermənistana da səfir göndərsin.

R.Milzə gəlincə, o, böyük ehtimalla, digər sələfləri və xələflərindən fərqli olaraq, ABŞ-Ermənistan münasibətləri tarixində, bütövlükdə Ermənistan tarixində qala biləcək. Məsələ ondadır ki, bu ilin mart-aprel-may aylarında Ermənistanda hakimiyyət dəyişikliyinə gətirmiş inqilabi prosesin əsas ilhamvericisi və müəllifi məhz Milz sayılır.

27 illik "müstəqillik" dövründə Ermənistanda ilk dəfə olaraq, birbaşa Qərbə kurs götürdüyünü gizlətməyən bir qüvvənin hakimiyyətə gəlişi əlbəttə ki, təsadüfi deyildi. Doğrudur, ac-yalavac durumda olan erməni xalqının Sərkisyan rejimindən, 20 ildir hakimiyyətdə olan "Qarabağ klanı"ndan narazılığı güclü idi. Lakin Rusiyanın forpostu olan bir ölkədə bu narazılığı hərəkətə gətirib inqilaba çevirmək də asan deyildi. ABŞ, onun İrəvandakı səfirliyi bunu öz adamları vasitəsilə bacardı. Necə deyərlər, Amerika Ermənistanda ilk dəfə Rusiyaya "əlcək atdı".

Xatırladaq ki, Ermənistandakı ABŞ səfirliyi postsovet məkanında həm ərazi, həm də əməkdaşlar baxımından ən böyük diplomatik missiya sayılır. Səfirliyin 3 minə yaxın işçisi olduğu deyilir. Bundan əlavə, Ermənistanda Amerikaya bağlı çoxsaylı QHT-lər, media fəaliyyət göstərir.

*****

Səfirlə görüşdəki açıqlamalardan da göründüyü kimi, erməni baş nazir ABŞ-ın inqilabdakı rolunu danmayıb. Ancaq açıqca görünür ki, Paşinyan Rusiyada əlavə qıcıq yaratmamaq üçün bunu maksimum yumşaq tərzdə ifadə edib. Bu da anlaşılandır. Niyə?

Ona görə ki, Ermənistandakı 20 illik rusiyayönlü rejim çöksə də, Rusiya hələ ki burada öz hərbi-siyasi dayaqlarını saxlayır. O cümlədən Kremlin açıq dəstəklədiyi "Qarabağ klanı" hələ çox güclüdür, ölkədə 2 rus hərbi bazası, 5 minlik rus hərbi kontingent var, Ermənistanın Türkiyə və İranla sərhədlərini rus hərbçilər qoruyur, Dağlıq Qarabağ məsələsi həll olunmamış qalır, üstəlik, Rusiya işğalçı ölkədə Ermənistanla ortaq hərbi qruplaşma yaradıb. Bəzi analitiklərə görə, bu qruplaşma lazım olan anda ölkədə hakimiyyət çevrilişi də edə bilər - baxmayaraq ki, yeni müdafiə naziri David Tonoyan Qərbin adamı sayılır.

Maraqlıdır ki, Paşinyanla Milz arasında sonuncu görüş günü Ermənistan ərazisində - "Baqramyan" poliqonunda Rusiya-Ermənistan birləşmiş hərbi qruplaşmasının təlimləri başlayıb. Təlimlər oktyabrın 13-dək davam edəcək. Bunu müəyyən mənada Kremlin Paşinyan hökumətinə və ABŞ-a öz varlığı haqda növbəti xəbərdarlığı da saymaq olar.

Yəni ki, Rusiya bütün hallarda burada - Ermənistandadır və öz forpostunu heç bir qlobal qüvvə ilə, xüsusən də ABŞ-la bölüşməyə hazırlaşmır. Demək, əsas mübarizə hələ qabaqdadır. Belədirsə, görəsən, Milzin amerikalı xələfi onun "inqilabi işi"ni davam etdirə biləcəkmi? Yəqin k, yeni səfirin İrəvana gəlişi çox ləngiməyəcək. Axı o, həm də yeni təlimatlarla gələcək. Hər halda Ermənistandakı qarışıq situasiya bunu diktə edir...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Səməd Seyidov AŞ PA-da barışıq komissiyası yaratmaq təklif edir

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) komissiyalarının tərkibində dəyişiklik edilməlidir".**

"Report"un Qərbi Avropa bürosu xəbər verir ki, bunu Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun payız sessiyasında "Assambleyanın hakimiyyət və səsverməyə dair qərarvermə səlahiyyətlərinin gücləndirilməsi" məruzəsinin müzakirəsi zamanı bildirib.

Onun sözlərinə görə, Avropa Şurası dəyərlərini dəyişməlidir: "Bu gün məruzənin müzakirəsi zamanı fikir ayrılıqları müşahidə edirik. Bu baxımdan gələcəyimiz, bundan sonra yürüdəcəyimiz siyasətimiz üzərində dərindən düşünməliyik. Qanunvericiliyimizi dəyişmək çıxış yolu deyil, Avropa Şurası dəyərlərini dəyişməlidir. Tolerantlıq hörmətlə əvəz edilməlidir. Avropa Şurasına üzv dövlətlər bir-birilərinə daha çox hörmət etməyə çalışmalıdır. Biz qanunvericiliyə dəyişikliklə kifayətlənməməliyik. AŞ PA-nın komissiyalarında, komissiyaların tərkiblərində dəyişiklik edilməlidir. AŞ PA-da üzv ölkələr arasında barışıq komissiyalarının yaradılmasına ehtiyac var. Çünki üzv dövlətlər yığışıb müzakirələr aparır, lakin bir sıra üzv dövlətlər, habelə Ukrayna, Gürcüstan, Moldova digər üzv dövlətlə mübahisəli məsələsini həll etməyə nail olmayıb. Eyni zamanda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsindəki münaqişə həll olunmamış qalıb".



Səməd Seyidov

**Qeyd edək ki, oktyabrın 8-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyası işinə başlayıb.**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

**2018-ci ilin onuncu ayından geri dönüb cari ilin ötən aylarına nəzər salanda qeyri-ixtiyari daha çox diqqətimizi cəlb edən Qarabağ ətrafında baş verənlər və işğalçı Ermənistanda yaşananlar olur. Təbii ki, torpaqlarımızın 25-ci ildir işğal altında alması, düşmənin status-kvonu saxlamağa cəhd etməsi baxımından mövcud vəziyyət bizi qane edə bilməz. Ancaq il ərzində baş verənlərə nəzər saldıqda Azərbaycanın faydasına bir sıra hadisələrin baş verdiyini söyləmək mümkündür.**




# İlin 10 ayının Qarabağ üçün əsas yekunu: "2019-cu ilə yaxşı zəmin yaranıb"

## Ermənistanda hərbi xuntanın devrilməsi, Qarabağdakı cinayətlərdə əli olanların küncə sıxışdırılması yeni situasiya vəd edir; **politoloq:** "2018-ci il Azərbaycanın üstün siyasi-diplomatik və hərbi gücünü təsdiqlədi..."

Bu il Ermənistanda "Qarabağ klanı"nın - hərbi xuntanın hakimiyyətinə son verilməsi həm də Azərbaycanın maraqlarına cavab verən mühüm hadisə oldu. Könül istərdi ki, Qarabağ torpaqlarının işğalında, törədilən cinayətlərdə, Xocalı qoyqırımında əsas rol oynamış Röbert Köçəryan, Serj Sərkisyan və digər canilər Azərbaycan məhkəməsi qarşısında dayansınlar. Lakin hələ ki məlum səbəblərdən Azərbaycanın sabiq vətəndaşları olan bu cinayətkarların müttəhimlər kürsüsündə dayanmasına nail ola bilmirik. İstənilən halda onların Ermənistanda nəinki hakimiyyətdən uzaqlaşdırılması, üstəlik, həbs təhlükəsi qarşısında qalmaları Azərbaycanın da faydasınadır.

Baş nazir Nikol Paşinyan yazda onu 1 mart 2008-ci il hadisələri ilə hədələyən Sərkisyanı və onun rəhbərlik etdiyi Respublikaçılar Partiyasını neytrallaşdıra bilib. "Qarabağ klanı" revanş əldə edib növbədənkənar parlament seçkilərinin dekabrda keçirilməsini əngəlləməyə çalışsa da, bu, mümkün olmadı. Orduda kifayət qədər dayaqları olan klan çox istəyir ki, seçkilər gələn ilin mayınadək təxirə salınsın və ona qədər toparlanıb yenidən hakimiyyəti ələ keçirsin.

2018-ci ilin Azərbaycan üçün faydalarından bəhs edərkən sözsüz ki, ordumuzun Naxçıvan istiqamətindən düşmənin təxribatına layiqli cavab verməsini, uğurlu Günnüt əməliyyatı nəticəsində böyük bir ərazinin, strateji yüksəkliklərin azad edilməsini xüsusi qeyd etmək lazımdır. Eyni zamanda ordumuzun Bakıdakı iki möhtəşəm hərbi parad, genişmiqyaslı hərbi təlimləri, ən müasir hərbi texnika və silah-sursat alınması prosesinin davam etdirilməsi işğalçı ölkəni son nəticədə öz yerini bilməyə vadar etdi. Düşənbədə Azərbaycan prezidenti İlham Əliyevlə görüşən baş nazir Paşinyanın arasında əldə olunan anlaşma da Azərbaycanın uğurları seriyasına əlavə olunmalıdır.

**Politoloq Tofiq Abbasov "Yeni Müsavat"a bildirdi ki, 2018-ci ildə Qarabağ məsələsində dəyişikliyin olmadığını demək düzgün deyil:** "Çünki həqiqətən də problemin öz daxilində də, onun ətrafında da böyük transformasiyalar baş verir. Bu baxımdan mən hətta deyərdim ki, status-kvo, ümumiyyətlə, dəyişilmək üzrədir. Əslində prosesin özündə elə dəyişikliklər baş verir ki, artıq status-kvo sanki hərəkətdədir, yəni o, mütləq dəyişəcək. Bu da onunla əlaqədardır ki, birincisi, münaqişədə iştirak edən tərəflərin güvələri tərs-mütənasibdir. Yəni Azərbaycan burada həqiqətən də güclü bənd kimi özünü göstərir, bunun müqabilində Ermənistan zəif bənd kimi görünür. Bunu sübut etməyə də ehtiyac yoxdur, böyük fərq açıq-aydın görünür, sezilir".

**Siyasi şərhçi işğalçı ölkədə baş verənlərə diqqət çəkdi:** "Biz Ermənistanın daxilində gedən parçalanma prosesinin şahidiyik. Görürük ki, bu ölkə çoxşaxəli böhrana qərq olub. Bunun da əsas səbəbi Ermənistanın siyasi elitasının uzaqgörənlikdən çox-çox uzaqlarda olmasıdır. Durmadan bu ölkənin daxilində tənəzzül dərinləşir. Digər tərəfdən, iqtisadiyyat çökür, Qarabağ klanı özünün hakim mövqelərini əldən verməkdə davam edir. Nikol Paşinyan yeganə, vahid və düzgün düstur seçməklə həmin quldur dəstəsinin "çarə"sini tapıb. Yəni bir çətinliyə düşən kimi Paşinyan meydanlara axışan insanlara müraciət edir, küçələrə çıxıb onlarla birbaşa təmasda olur və bununla da Qarabağ klanına, quldur dəstəsinə göstərir ki, onlara qarşı silahı var".

**T.Abbasov hesab edir ki, Qarabağla bağlı əsas dönüş nöqtəsi kimi prezident İlham Əliyevlə N.Paşinyan arasındakı Düşənbə görüşü nəzərdən qaçırılmamalıdır:** "Belə başa düşürəm ki, həmin görüşdə Paşinyan bir zəmanət qazana bildi ki, Azərbaycan hazırkı vəziyyətdə Ermənistana heç bir təzyiq göstərməyəcək. Daha doğrusu, öz torpaqlarında antiterror əməliyyatına başlamayacaq. Yəni Ermənistanın baş naziri Nikol Paşinyana bu zəmanət hava-su kimi lazım idi ki, daxildəki vəziyyəti cilovlasın, prosesləri öz axarına buraxmasın".

**Politoloq zənn edir ki, bu vəziyyət Rusiyanın da ürəyincədir:** "Çünki Paşinyan Rusiyadan qaçma siyasətinə rəvac verir. Digər tərəfdən, o, Qərblə münasibətlərini formalaşdırır. Nəhayət, biz burada Rusiyanın narazılığını görməyə bilmirik. Ancaq Rusiyanın bu fonda Azərbaycanla münasibətlərinin dərinləşdirilməsi, genişlənməsi, dialoqun sabit şəkildə inkişaf etdirilməsi, ümumiyyətlə, regionda Azərbaycanın ən vacib dövlətlərdən biri olmasına işarədir".

**T.Abbasov 2018-ci ilin sonunadək Qarabağla bağlı prosesdə dönüş yaranacağına ümidlər olduğunu da xatırlatdı. Ancaq qeyd etdi ki, bu, baş verməsə də, cari il ərzində Qarabağ problemi çərçivəsində böyük tərpənişlər oldu və indi də baş verir:** "Söhbət təkcə Ermənistanın geriləməsindən getmir. Bəli, Ermənistan çoxdan geriləyib və biz bunu müşahidə edirik. Məsələ ondadır ki, Azərbaycan artıq regionda öz sözünü deməyə qadirdir. Belə başa düşürəm ki, artıq 2019-cu il üçün yaxşı bir zəmin yaranır. Yəni bu, bizim istəyimizdən irəli gələn həqiqət deyil. Əksinə, bir şeyi müşahidə edirik ki, 2018-ci ildə baş verən hadisələr həqiqətən də Azərbaycanın gücünü, onun müdafiə potensialını, eləcə də diplomatik üstünlüyünü təsdiqlədi. Biz bunu həm Qərbin, həm Rusiyanın Azərbaycana münasibətindən görürük. Eləcə də qonşu dövlətlər - Türkiyə, İran, Qazaxıstan Azərbaycanın dominant rol oynamasını artıq həm görürlər, həm də dəstəkləyirlər. Bütün bu imtiyazlı vəziyyətin sonunda Qarabağ məsələsi demək olar ki, Azərbaycan üçün artıq fraqmental bir problemə çevrilir. Yəni elə bir problemə çevrilir ki, Azərbaycan onun öhdəsindən gəlməyə həm qadirdir, həm də hazırdır".

**"Son beş ayda Paşinyan və onun tərəfdarları Ermənistanda plüralizm fikirlərini öldürməyə çalışırlar". Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu Ermənistanın Respublika Partiyasının mətbuat katibi, parlamentin vitse-spikeri Eduard Şarmazanov deyib.** "Bəzi insanlar deyir ki, Paşinyan düzgün adamdır. İnsanları parlamentə aparmaq, həmkarlarını təhdid etmək, məhkəmə sistemini təzyiq altında saxlamaq düzgünlükdür? Əgər bütün bunlardan sonra onlar hələ də belə fikirləşirlərsə, mənim düzgünlük anlayışımla onların fərqlidir", - o bildirib. "Ermənistanda konstitusiya prinsiplərini və hakimiyyət bölgüsünü zorladılar. Ermənistanda ilk dəfə icra hakimiyyəti qanunverici hakimiyyətin ərazisinə soxuldu. Bonapart, Hitler də belə etmişdi. Bu, sondur. Ermənistanda plüralizm öldü. Bizdə baş nazir deyil, çar, diktator olacaq. Siz bunu istəyirdiniz? Zövq alın!", - o bildirib.

Mətbuat katibinin sözlərinə görə, Ermənistanın sonu çatıb. Bunu Ermənistan parlamentinin sədr müavini deyirsə, əlavə şərhə ehtiyac yoxdur. Əslində bir sıra ekspertlərimiz dəfələrlə bildiriblər ki, Ermənistanın indiki hakimiyyəti ölkəsini fəlakətlərdən xilas etmək istəyirsə, torpaqların işğalına son qoymalı və həm öz hakimiyyətini, həm də ölkəsini xilas etməlidir. Azərbaycan prezidenti də bir neçə dəfə Ermənistanın keçmiş rəhbərliyinin taleyini xatırladaraq yeni rəhbərliyi düzgün seçim etməyə çağırıb. İndi Ermənistan hökuməti seçim etməlidir, ya Sərkisyan taleyi, ya da konstruktiv yol...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Məharət Mustafayevə cinayət işi açılıb

**Gəncə Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma İdarəsinin sabiq rəisi, Elmar Vəliyevin "sağ əli" kimi tanınan Məharət Mustafayevə cinayət işi açılıb.**



BakuPost.az xəbər verir ki, Gəncə Şəhər İcra Hakimiyyətinin yeni başçısı Niyazi Bayramov tərəfindən işdən azad olunmuş Məharət Mustafayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək vətəndaşlardan müxtəlif məbləğlərdə pul toplaması və digər əməlləri ilə bağlı Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edilib. Müraciətlərə görə idarəyə çağırılan sabiq memara cinayət işi açılıb. Lakin hələlik həbs olunmayıb. Məlumata görə, onun məsuliyyətə cəlb olunmasında yeni icra başçısı da maraqlıdır. Çünki zərərçəkən sakinlər icra hakimiyyətinə gələrək kömək istəyirlər. Kimisi Məharət Mustafayevdən torpaq aldığını, lakin buna görə müvafiq sənədlərin verilmədiyini, kimisi pulu ödəsə də tikinti üçün torpaq ayrılmadığını, kimisi də satılmış torpağa görə verilən sənədlərdə ciddi uyğunsuzluqların olduğunu iddia edir. Şikayətçilər arasında daha böyük məbləğlərdə vəsaitdən məhrum olmuş iş adamları da var.

BakuPost cinayət işinin konkret kimlərin ərizəsi əsasında açıldığını da müəyyən edib. Məlum olub ki, cinayət işi Tutu Əhmədova, Eynulla Kərimov, Asim Kazımov və digərlərinin şikayəti əsasında açılıb və cinayət işi üzrə müəyyən istintaq hərəkətləri də aparılıb, M.Mustafayev bir neçə dəfə Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə çağırılıb. Şikayətçilər iddia edirlər ki, M.Mustafayev onlara torpaq sahəsi ayıracağı adı altında müxtəlif məbləğlərdə pul alıb, lakin nə vəd olunmuş torpaq verilib, nə də pul geri qaytarılıb. Şikayətçilərdən T.Əhmədova Rusiya vətəndaşıdır və Baş Prokurorluğa yazdığı şikayətdə M.Mustafayevin ondan 100 min dollar aldığını bildirib.

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

**Bu ilin dekabrında Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Bu barədə qərar parlamentin oktyabrın 9-da baş tutan iclasında qəbul edilib. Qanunverici orqanın 55 deputatı qərarın lehinə səs verib.**

# Azərbaycan müxalifəti Ermənistanda hansı ssenarinin baş tutmasını arzu edir?

## Dekabrda keçiriləcək parlament seçkilərinin nəticələri Azərbaycan üçün də maraqlıdır

Siyasi ekspertlər hesab edir ki, parlamentin belə bir qərar verməsi Ermənistanın baş naziri Nikol Paşinyanın “Çiçəklənən Ermənistan” Partiyasının lideri, məşhur biznesmen Qaqik Tsarukyanla görüşərək memorandum imzalamasından sonra mümkün olub. Buna qədər Paşinyan parlamentdə növbədənkənar seçki qərarının qəbuluna nail ola bilmirdi. Bu memorandumdan sonra parlamentdə çoxluqda olan Serj Sərkisyanın Respublika Partiyası müqavimət göstərə bilməyib. Səsvermə Paşinyanın istəyinin nəhayət reallaşması ilə nəticələnib.

Ermənistanda dekabrda keçiriləcək parlament seçkilərinin həddən artıq gərgin keçəcəyi proqnozlaşdırılır.

Azərbaycanın müxalifət düşərgəsi Ermənistanda seçkilərin nəticələrinin hansı ssenarisinin bizə sərf etdiyini düşünür?


Əli Əliyev


Tural Abbaslı


Taliyət Əliyev

**VİP sədri Əli Əliyev bildirdi ki, Nikol Paşinyan seçkiləri önə çəkməklə Qarabağ klanının Kremllə hazırladığı planı pozmaq istəyir. Onun hesablamalarına görə uzaq vədədə Robert Köçəryan Moskvanın dəstəyi ilə güclənə bilər. Zaman keçdikcə Paşinyandan olan gözləntilər puça çıxa bilər deyə o, tələsmək zorundadır. Əslində bizə Ermənistanda yalnız qarışıqlıq sərf edir ki, düşmən tərəf iç-içə girsin:** “Bu halda Rusiyanın nüfuzu güclənəcək. Digər iki variant da xeyrə deyil. Köçəryanın timsalında Qarabağ klanı hakimiyyətə dönsə, Kremlin bölgə və Ermənistana təsiri həlledici olacaq. Üçüncü gedişat da ürəkaçan deyil. Belə ki, Ermənistanda demokratik sistemin qurulması Qarabağ münaqişəsinin həllində onların əlini güclü edə bilər. Ona görə də Azərbaycan ümidini Ermənistanda seçkinin necə nəticələnməsinə deyil, öz daxilində demokratik açılım, siyasi münasibətlərin yumşaldılması, Qarabağ münaqişəsinin həllində ümummilli platformanın yaradılmasına, daxili dialoqa bağlamalıdır”.

AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, Paşinyan faktiki olaraq ölkənin icra hakimiyyətini əlində cəmləşdirir. Ancaq nəzərə alsaq ki, Ermənistan parlamentar respublika modelinə keçib, hazırda burada əsas siyasi qüvvə parlament sayılır. Çünki belə dövlətlərdə hökuməti parlament formalaşdırır. **Nə qədər ki, parlament Paşinyanın müxalifətinin əlindədir, o özünü arxayın hiss edə bilməz. Odur ki, Paşinyan və onun komandası tələsir. Azərbaycanın maraqları baxımından yanaşsaq, hansı siyasi qüvvənin orada hakimiyyətə gəlməsinin strateji cəhətdən elə də fərqi olmayacaq:** “Çünki erməni xisləti və onların Azərbaycana münasibətləri birmənalı olaraq mənfidir, düşməncədir. Yəni biz oradakı hansısa siyasi təlatümlərə və ya şəxslərə ümid etməməliyik. Tam əksinə, bütün mümkün vəziyyətlərin həllini özümüzdən asılı hala gətirməliyik. Yəni ki, rəqibin zəifliyinə deyil, özümüzün gücünə arxalanmalıyıq.

Ancaq ümumiyyətlə götürsək, düşünürəm ki, parlament seçkilərində təcrübəsiz, populist, yeganə hamiləri olan Rusiya ilə aranı soyudan Paşinyan və onun komandasının qalib gəlməsi bizə sərf edir. Çünki Qarabağ məsələsində lap əvvəldən birmənalı və tam şəkildə hərbi, siyasi, iqtisadi cəhətdən Ermənistanın yanında dayanan Rusiya ilə münasibətləri Paşinyanın populist və qərbyönlü siyasəti məhv edir. O da bəllidir ki, Rusiya kimi müttəfiqdən məhrum olan Ermənistanın Qarabağ konfliktində Azərbaycanın qarşısında heç bir mənada şansı yoxdur. Məncə, hazırkı vəziyyətdə Rusiya ilə münasibətlərin soyumasına səbəb olan siyasi qüvvənin Ermənistanın tam hakimiyyəti olması Azərbaycanın maraqları çərçivəsindədir. Belə bir vəziyyətdə Rusiyanın da sakit qalacağına inanmıram, ancaq bu artıq başqa bir məsələnin mövzusudur".

**ADP sədrinin müavini Taliyət Əliyev bildirdi ki, Ermənistan Azərbaycan ərzilərini işğal edən və bu gün də ilhaq siyasətini həyata keçirən dövlətdir. Bu baxımdan Ermənistanda baş verən ictimai-siyasi hadisələr, o cümlədən keçirilən seçkilər Azərbaycanda həssaslıqla izlənilir. Ona görə də Ermənistanda keçirilməsi nəzərdə tutulan parlament seçkilərinin hansı ssenari üzrə keçirilməsinin sözsüz ki, Azərbaycan üçün əhəmiyyəti var:** “Hesab edirəm ki, Ermənistandakı parlament seçkilərinin azad, ədalətli və demokratik şəkildə keçirilməsi Azərbaycan üçün daha məqbul olardı. Çünki yalnız demokratik seçkilərlə Ermənistanın nisbətən mütərəqqi qüvvələrinin parlamentə düşmə şansı böyükdür. Ermənistanın bu cür qüvvələri hakimiyyətdə təmsil olunarsa, bu faktor Dağlıq Qarabağ probleminin ədalətli həllinə müsbət təsir edə bilər. Yox, əgər bu seçkilər də bu vaxta kimi keçirilən seçkilər kimi Rusiyanın nəzarəti altında keçiriləcəksə, sözsüz ki, bunun istər regionun demokratikləşməsi baxımından, istərsə də Dağlıq Qarabağ probleminin ədalətli həll olunması baxımından Azərbaycana heç bir müsbət təsiri olmayacaq”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Zorlanıb öldürülən jurnalistin işi ilə bağlı gəlişmə var

**Bolqarıstanlı araşdırmaçı jurnalist Viktoriya Marinova ölkənin Ruse şəhərində öldürülüb. Bolqarıstan rəsmiləri 30 yaşı jurnalistin zorlandıqdan sonra öldürülməsi ilə bağlı məlumat yayıb.**

Bolqarıstan polisi televiziya jurnalistinin qətli ilə əlaqədar şübhəli bilinən şəxsi saxlayıb. Jurnalist Viktoria Marinovanın amansızlıqla ödürülməsi ölkəni sarsıdıb, dünya ictimaiyyətini qəzəbləndirib. “Bir şübhəlinin saxlandığını deyə bilərik”, - “Reuters” xəbər agentliyi jurnalistin qətlinin istintaqı ilə tanış hökumət mənbəsinə istinadla yazıb. Mənbə anonimlik şərti ilə danışıb. Bolqarıstan dövlət radiosu Daxili İşlər Nazirliyindəki mənbələrə istinadla təsdiqlənməmiş informasiya yayıb. Şübhəlinin “Moldova pasportu daşıyan rumıniyalı olduğu” bildirilir. Nazirliyin sözçüsü məlumatı şərh etməyib.

Marinovanın cəsədi oktyabrın 6-da Ruze şəhərində Dunay çayının yaxınlığındakı parkda tapılıb. Polis 30 yaşlı Marinovanın qəddarlıqla döyüldüyünü, zorlandığını və boğulduğunu bildirir. Onun həm şəxsi, həm də peşəkar həyatı ilə bağlı təhqiqat gedir.

Beynəlxalq qurumlar Bolqarıstanı jurnalistin ölümünü sürət və qətiyyətlə araşdırmağa çağırıb. BMT-nin baş katibi Antonio Guterres hökumətləri jurnalistlərə qarşı cinayətlər üzrə “hesabatlılığı” təmin etməyə çağırıb. O, Bolqarıstandakı insidenti “qorxunc qətl və zorlama” adlandırıb.

BMT-nin sözçüsü Stephane Dujarric Nyu Yorkda jurnalistlərə deyib ki, “özəlliklə qadın jurnalistlərə qarşı cinsi və digər zorakılıq halları narahatedici şəkildə artmaqdadır”. Bolqarıstanda prokurorlar isə Avropa İttifaqının ayırdığı vəsaitdən sui-istifadə halları ilə bağlı iddiaları araşdırmağa başlayıb.



Marinovanın sentyabrda aparıcılıq etdiyi proqramda bu mövzu müzakirəyə çıxarılmışdı. Proqramda söhbət GP Group adlı tikinti şirkətindən gedirdi. Daxili İşlər Nazirliyi bu şirkətlə bağlı araşdırma aparıldığını qeyd edib.

GP Group-un Aİ-nin ayırdığı vəsaiti sui-istifadə etdiyi bildirilir. Nazirliyin məlumatına görə, şirkətin 16 milyon dollarlıq aktivi dondurulub. Oktyabrın 8-də axşam yüzlərlə adam Ruze şəhərində jurnalisti anmağa çıxıb. Ölkənin müxtəlif yerlərində Marinovanın portretləri qaldırılıb, şamlar yandırılıb.

İştirakçılardan bəziləri isə Ədalət Sarayına üz tutaraq korrupsiyaya etiraz ediblər, hökumətin, baş prokuror Sotir Tsatsarovun istefasına çağırıblar.

Bolqarıstanın baş polis rəsmisi deyir ki, telereportyorun ölümünün onun işinə bağlı olmasına dair hələlik sübut tapılmayıb.

Viktoria Marinova-nın qətli ölkəni sarsıdıb. Daxili işlər naziri Mladen Marinov oktyabrın 8-də ölkənin şimalındakı Ruse şəhərinə gedib. “Söhbət zorlanmadan və öldürülməkdən gedir”, - o deyib.

Almaniya xarici işlər nazirliyinin sözçüsü sürətli araşdırmanın vacib olduğunu vurğulayıb. “Victoria Marinovanın dəhşətli qətlindən sarsılmışıq. Daha bir jurnalist həqiqət uğrunda, korrupsiyayla mübarizədə qurban gedir”, - Avropa Komissiyasının birinci vitse-prezidenti Frans Timmerman tvitində yazıb.

Veteran telereportyor olan Marinova illər boyu TVN özəl telekanalında canlı şou proqram aparıb, həmçinin menecmentin üzvü olub.

Bir neçə ay öncə isə o, “Detector” adlı araşdırma proqramının aparıcısı kimi çalışmağa başlayıb. Son proqramlarda Avropa İttifaqının ayırdığı vəsaitin düzgün xərclənməməsi, özəl şirkətlərin korrupsiyaya yol verdiyi iddia olunan müsahibələr efirə gedib.

Marinova son 12 ayda Avropa İttifaqı ərazisində zorakılıqla öldürülən üçüncü jurnalist sayıla bilər. “Əvvəl Malta, daha sonra Slovakiya, indi də Bolqarıstan. Avropada jurnalistlərin öldürülməsi qəbuledilməzdir”, - Avropa Parlamentinin alman üzvü Said Sven Giegold deyib.

Qeyd edək ki, bundan öncə Malta və Slovakiyada araşdırmaçı jurnalistlər qətlə yetirilib.

Parisdə mənzillənən Sərhədsiz Reportyorlar Təşkilatı bildirib ki, təhqiqat aparıldığı müddətdə TVN jurnalistləri polis qoruması ilə təmin olunmalıdır.

ATƏT-in Media Azadlığı təşkilatının təmsilçisi Harlem Desir cinayətlə bağlı cavabdehlərin dərhal məsuliyyətə cəlb edilməsini tələb edib.

Qeyd edək ki, Malta və Slovakiyada oxşar korrupsiya araşdırması aparan iki jurnalist öldürülmüşdü. Maltalı jurnalist Daphne Caruana Galiza 2017-ci ilin oktyabrında avtomobilin partladılması ilə öldürülmüşdü. Slovak jurnalistə isə 2018-ci ilin fevralında evində nişanlısı ilə birgə sui-qəsd edilmişdi.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağa qanunsuz səfərlər sülhü yox, müharibəni yaxınlaşdıracaq

## Qonşu ölkənin ərazisinə soxulub oradan sülh çağırışı etməyin yalnız bir adı var; Ermənistanda hakimiyyət dəyişsə də, düşmənin ucuz PR taktikası dəyişməyib; sülhün formulu isə çoxdan bəllidir...

**İşğalçı Ermənistanda inqilab sonrası qeyri-müəyyən situasiya davam edir. Qarabağ danışıqları, bütövlükdə sülh, yoxsa müharibə seçimi indi xeyli dərəcədə düşmən ölkədəki daxili ictimai-siyasi proseslərin necə inkişaf edəcəyindən asılıdır. Şübhə yox ki, bu proseslər aydınlaşmayınca, Ermənistanda faktiki, ikihakimiyyətlilik başa çatmayınca, Dağlıq Qarabağa dair hansısa ciddi danışıqlardan söz açmağa dəyməyəcək.**






Eləcə də ilin sonuna iki ölkə XİN başçıları arasında nəzərdə tutulan daha bir görüşün nəticə verəcəyi inandırıcı görünmür. Hələlik isə baş nazir Nikol Paşinyan öz hakimiyyətinin legitimliyinə və şəriksizliyinə nail olmaq üçün növbədənkənar parlament seçkilərinin bu ilin dekabrında keçirilməsinə çalışır. Bundan ötrü əsas siyasi qüvvələrlə mübarizəsini davam etdirir.

Bu mübarizənin nə ilə bitəcəyi barədə analitiklər müxtəlif fikirlər səsləndirirlər. Onların arasında Paşinyanın tezliklə iqtidardan devriləcəyi haqda proqnozlar da var.

*****

Bu arada baş nazir Nikol Paşinyan öz əsas hədəfinə doğru yolda mühüm uğura nail olub. Belə ki, srağagün o, parlamentdə böyüklüyünə görə ikinci fraksiya olan "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Tsarukyanla dekabrda erkən parlament seçkilərinin keçirilməsi haqqında memorandum imzalayıb. Bu, o deməkdir ki, keçmiş prezident Serj Sərkisyanın nisbi çoxluqda olduğu indiki parlamentin buraxılmasına müqavimət göstərən koalisiyanı parçalaya bilib. Dünən isə Paşinyanın daşnaklarla anlaşması gözlənilirdi.

Erməni baş nazir eyni gündə Serj Sərkisyanı və partiyasını hədələyib (virtualaz.org). "Ermənistanın Respublikaçılar Partiyası mövcud siyasi vəziyyəti dərk etməməkdə israrlıdır və ölkədə gərginliyin artmasına şərait yaradır". Bunu o, jurnalistlərə açıqlamasında deyib.

KİV nümayəndələrinin "Respublikaçılar baş nazir postuna öz namizədini irəli sürəcəyini istisna etməyib" ifadəsini şərh verən Paşinyan buna imkan verməyəcəyini bildirib. "Sanitek" (Sərkisyanın keçmişdə santexnik işləməsinə işarə edilir - red.) zibilxanasından çıxmaq olar, amma tarixin zibilliyindən yox. Gəlin, fantastika janrında fərziyyə qurmayaq. Çünki xalq və biz heç kimə bu imkanı verməyəcəyik. Əgər kimsə xalqa problem yaratmaq rolunu öz üzərinə götürmək və xalqa mane olmaq qərarına gəlibsə, xalq özü həmin problemin ləğvi yolunu tapacaq. Mən özümü bu prosesin qarantı hesab edirəm", - deyə Paşinyan bəyan edib.

Ermənistanın baş naziri onu da əlavə edib ki, dekabrda erkən seçkilər naminə nə zaman istefa verəcəyini hələ dəqiqləşdirməyib. Lakin ölkə parlamenti əslində de-fakto buraxılıb və onun fəaliyyətinin indi, sadəcə, de-yure dayandırılması qalır.

*****

Ermənistandakı daxili qeyri-sabitliyin və siyasi qarşıdurmanın fonunda baş nazirin arvadı Anna Akopyanın bir neçə rusiyalı qadınla qanunsuz şəkildə işğal altındakı Dağlıq Qarabağa gedərək, guya sülhə dəstək naminə çağırış eləməsi də diqqət çəkir. Şübhə yox ki, bu cür hərəkətlər sülhdən daha çox, müharibəyə xidmət edir. Çünki Azərbaycan və erməni xalqları arasında barışığı bir az da əlçatmaz edir, separatizmi şirnikləndirir, Azərbaycan XİN-dəki "qara siyahı"nı daha da uzatmış olur.

Qonşu ölkənin ərazisinə soxulub, oradan ona sülh çağırışı eləmək, yumşaq desək, siyasi riyakarlıqdır. Qarabağda sülh istəyən Akopyan-Paşinyan cütlüyü öz övladını Azərbaycana "hərbi xidmətə" göndərməzdi. Qısası budur ki, xanım Akopyanın hərəkəti ən əvvəl başı seçki məsələsinə qarışmış əri Nikol Paşinyan üçün PR düzəltmək, guya təzə hökumətin müharibə istəmədiyi, müharibəni yalnız Azərbaycanın arzuladığı haqda dünyada yanlış rəy yaratmaqdır.

Sülhün formulu isə çoxdan məlumdur. Akopyan da, Paşinyan da yaxşı bilir ki, Azərbaycan öz torpaqlarında heç vaxt ikinci erməni dövlətinin yaradılmasına razı olmayacaq. İki ölkə arasında daimi sülh yalnız bu şərtin altında mümkündür. Əks halda, enində-sonunda böyük müharibə qaçılmaz olacaq.

*****

**"Sülh çağırışı edən şəxs ilk növbədə oğlunun hətta Ermənistanın işğal etdiyini təsdiqlədiyi Füzuli rayonuna hərbi xidmətə göndərilməsinə etiraz etməlidir". Bu sözləri Anna Akopyanın irəli sürdüyü "Qadınlar sülh naminə" təşəbbüsü çərçivəsində Rusiyadan bir qrup qadınla birlikdə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfərinə münasibət bildirən deputat Aytən Mustafayeva deyib (axar.az). Deputat bildirib ki, Ermənistan rəhbərliyi indi də həyat yoldaşı vasitəsilə "humanitar missiya" adı altında Azərbaycanın işğal olunmuş ərazilərinə səfərlər təşviq etməklə öz yalanlarına bəraət qazandırmağa çalışır.**

"Hamı başa düşür ki, sülh çağırışını Azərbaycanın ərazi bütövlüyünü pozmaqla, Qarabağa qanunsuz səfərlə etmək heç bir normal məntiqə sığmır. Çünki o torpaqlar Azərbaycanındır və işğal altındadır. İşğal etdiyin torpağa öz oğlunu hərbi xidmətə göndərib, sonra da gəlib bütün dünya tərəfindən Azərbaycanın ərazisi olaraq qəbul edilən bölgədən "sülh çağırışı" etmək hansı zehniyyətdir? Dağlıq Qarabağ ətrafındakı 7 rayonun işğal edildiyini hətta Ermənistan özü də təsdiqləyir və buranı guya "təhlükəsiz zona" olaraq saxladığını bildirir. Sülh çağırışı edən şəxs oğlunun ilk növbədə işğalını etiraf etdiyi bir əraziyə - Füzuli rayonuna hərbi xidmətə göndərilməsinə etiraz etməlidir. Sən oğlunu işğaldakı torpaqları əlində saxlamaq üçün göndərəcəksən, sonra da gəlib işğal etdiyin torpaqdan "təmas xəttinin bu tərəfinə" sülh çağırışı edəcəksən - bu, tarixdə görünməmiş bir "siyasət"dir", - deyə o qeyd edib.

**Deputatın sözlərinə görə, Akopyanın "humanitar missiya" adı altında Qarabağa qanunsuz səfəri əslində başqa bir dövlətin torpaqlarının zəbtini, işğalı etiraf etməkdir:** "Akopyan hansı haqla "Qadınlar sülh naminə" təşəbbüsü ilə çıxış edərək bir qrup rus qadınlarla Qarabağa qanunsuz səfərlər təşkil edir? Bu hadisənin özü belə ermənilərin Azərbaycan ərazilərini işğal etdiyini açıq sübuta yetirir".

Ancaq erməni də erməni olmazdı əgər öz yalanını dünyaya gerçək kimi sırımaqda davam eləməsəydi. Belə görünür ki, Ermənistanda hakimiyyət dəyişsə də Qarabağdan ucuz PR kimi istifadə taktikası dəyişməyib.




## Bu gün təmas xəttində növbəti monitorinq keçiriləcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 10-da Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Müdafiə Nazirliyindən musavat.com-a verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid hərbi qulluqçuların ailə üzvlərinə birdəfəlik ödəmənin verilməsi prosesinə başlanılıb.**

# Şəhidlərin varislərinə qanpulunun verilməsinə başlandı

## Rey Kərimoğlu: "Bundan sonrakı işimiz qazilər üçün sığorta haqqının ödənməsinə nail olmaqdır"

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib ki, prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli fərmanının icrası istiqamətində nazirlikdə yaradılmış komissiya tərəfindən bir sıra işlər görülüb. Belə ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını, Ədliyyə Nazirliyi həmin şəhid hərbi qulluqçulardan sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olanların siyahısını, Dövlət Sığorta Kommersiya Şirkəti isə vərəsələrinə sığorta ödənişi verilmiş hərbi qulluqçuların siyahısını nazirliyə təqdim edib. Bu siyahılar üzərində müvafiq dəqiqləşdirmə işləri yekunlaşıb. Fərmana əsasən bu kateqoriyadan olan hər bir şəhid ailəsinin vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə həyata keçiriləcək.

Artıq dünəndən hərbi qulluqçuların ailə üzvləri nazirliyin saytında "BİRDƏFƏLİK ÖDƏMƏ" bölməsinə daxil olmaqla hərbi qulluqçunun soyadı, adı və atasının adını daxil edərək, birdəfəlik ödəməni almağa hüququnun olub-olmadığını yoxlaya bilirlər.



Axtarışın nəticəsi olaraq "Hərbi qulluqçunun Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən müəyyən edilən vərəsəsinin (vərəsələrinin) birdəfəlik ödəməni almaq hüququ vardır" cümləsi çıxdıqda, həmin vərəsə vəfat etmiş hərbi qulluqçunun sonuncu yaşayış yeri, bu məlum olmadıqda mirasının olduğu yer üzrə notariat kontoruna müraciət edir.

Hərbi qulluqçunun vərəsəsi tərəfindən notariat kontoruna bu sənədlər təqim olunur:

- hərbi qulluqçunun ölümü haqqında şəhadətnamə;
- hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edildiyi təqdirdə, bu barədə məhkəmə qərarı;
- birdəfəlik ödəmənin verilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin adına ünvanlanan ərizə. Ərizə forması notariat orqanından əldə edilir;
- bank hesabı nömrəsinə dair arayış. Vərəsənin bank hesabı olmadıqda, o istənilən bankda öz adına hesab açır və bank hesabı nömrəsinə dair arayış alır.

Vərəsəliyin müəyyən edilməsi üçün notariat orqanı tərəfindən əlavə sənədlər də tələb oluna bilər. Məsələn: doğum, nikah, ölüm haqqında şəhadətnamələr və s.

Hərbi qulluqçunun vərəsəsinin birdəfəlik ödəməni almağa hüququnun yarandığı təqdirdə, notarius tərəfindən vərəsəlik şəhadətnaməsi verilir.

Vərəsəlik şəhadətnaməsi və vərəsənin təqdim etdiyi sənədlərdəki məlumatlar notarius tərəfindən elektron qaydada 3 iş günü müddətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzi Elektron İnformasiya Sisteminə ötürülür.

Məlumat sistemə daxil olduqdan sonra müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, onların daxilolma tarixini və reyestr nömrəsini əks etdirən bildiriş vərəsələrin ərizədə qeyd etdiyi əlaqə nömrələrindən birinə göndərilir.

Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan maliyyə vəsaitinin ayrılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Maliyyə Nazirliyinə müraciət olunur.

Tələb olunan maliyyə vəsaiti ayrıldıqdan sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, birdəfəlik ödəmə vərəsənin bank hesabına köçürülür. Bu barədə vərəsənin ərizədə göstərilən əlaqə nömrələrindən birinə bildiriş göndərilir.

Əgər hərbi qulluqçunun vərəsələri daimi əsaslarla ölkə hüdudlarından kənarda yaşayırlarsa, onlar tələb olunan sənədlərlə birlikdə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəlik və konsulluğuna müraciət edirlər.

Əmək və əhalinin sosial müdafiəsi naziri S.Babayev qeyd edib ki, prezidentin fərmanı Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsini yaxşılaşdırmaqla yanaşı, ölkəmizdə gənclərin vətənpərvərlik hissinin güclənməsinə təkan verir.

Artıq dünəndən etibarən şəhid hərbi qulluqçuların vərəsələri birdəfəlik ödəməni almaq üçün notariusa müraciət etməyə başlayıblar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Fazil Talıblının "Yeni Müsavat"a dediyinə görə, fərmanın ümumilikdə neçə nəfərə şamil ediləcəyi açıqlanmır, çünki hərbi sirr sayılır.

Qeyd edək ki, bu ilin dövlət büdcəsindən şəhid vərəsələrinə birdəfəlik ödəniş olunması üçün 58 milyon manat vəsait ayrılıb.

**Qarabağ Qaziləri İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ qazisi Rey Kərimoğlunun "Yeni Müsavat"a bildirdiyinə görə, onlar prosesi yaxından izləyirlər:** "Bu, uzun illərdən bəridir aparılan mübarizənin nəticəsidir. Neçə illərdi, qanunvericilikdəki boşluq, bəzi məmurların özbaşınalığı üzündən məsələ həllini tapmırdı. Nəhayət, ölkə prezidenti, Ali Baş Komandan məsələnin ciddiliyini nəzərə alaraq prezident seçkilərindən sonrakı ilk fərmanını buna həsr etdi. Son vaxtlar, hələ Səlim Müslümovun dövründən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa ciddi əhəmiyyət verilir. Qaldırdığımız bütün məsələlər dərhal müzakirə olunur, həllinə dəstək göstərilir. Yeni nazir Sahil Babayev də QHT-lərə münasibətdə çox açıqdır, vaxtaşırı görüşür, təklifləri dinləyir".

**Qarabağ qazisi deyir ki, bu mərhələyə gələnədək çox ağır işlər görülüb:** "Biz yaxından izləmişik bu prosesi. Çox ağır işdir: bütün hərbi qurumlardan, hüquq-mühafizə orqanlarından siyahılar alınıb, dəqiqləşdirilib. Şükürlər olsun ki, gəlib bu günə çatmışıq. İndiyədək proses çox şəffaf gedib. Ümid edirik ki, belə də davam edəcək. Şəhid ailələrinə də müraciət edirəm ki, hər hansı problemlə üzləşsələr, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etsinlər".

**R.Kərimoğlunun sözlərinə görə, Şəhid Ailələri İctimai Birliyinin rəhbəri Almaz Zeynalova bu işin reallaşması üçün çox çalışıb:** "O xanım bütün bu illər ərzində yorulmadan çalışıb. Bu işdə bizə Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli də yaxından dəstək verib. Biz əslində iki məsələ qaldırmışdıq: şəhidlər və Qarabağ qaziləri üçün sığorta haqqı. Məsələ müzakirə olunarkən hökumətdəkilər deyirdilər, çox böyük vəsait tələb olunur. Onda biz təklif etdik ki, ödəniş birinci mərhələdə şəhid ailələrinə verilsin. Çox təşəkkür edirik, millət vəkili Qüdrət Həsənquliyev prezident seçkiləri zamanı məsələni platformasına saldı. Ölkə rəhbərinə minnətdarıq ki, ilk fərmanında bu məsələnin həllinə qərar verdi. Bundan sonra işimiz Qarabağ qaziləri üçün sığorta haqqının ödənməsinə nail olmaqdı. Bu, qanunun tələbi və sağlamlığını vətən yolunda itirmiş qazilərin haqqıdır".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Valyutadəyişmə məntəqələri açılır - hazırlıq başladı

## Valyutadəyişmə məntəqəsi üçün lisenziya almağa 50 min manat girov tələb olunur

**Bir müddətdir ki, ölkədə valyutadəyişmə məntəqələrinin taleyi ilə bağlı müzakirələr başlayıb. Qeyd edək ki, hələ ötən ilin aprelində Milli Məclis "Valyuta tənzimi haqqında" Qanun qəbul edilib.**

Qanuna görə, valyutadəyişmə məntəqələrinə nəzarət Maliyyə Bazarlarına Nəzarət Palatasına həvalə edilib. Lisenziyalar təkcə poçtlara deyil, eyni zamanda banklara, rezident və qeyri-rezidentlərə, vətəndaşlara veriləcək. Valyutadəyişmə məntəqəsi üçün lisenziya almağa 50 min manat girov tələb olunur.

Qeyd edək ki, qanuna əsasən valyuta mübadiləsi əməliyyatlarının aparılması qaydaları, o cümlədən təşkilati, texniki təchizat, təhlükəsizliyə dair tələblər, uçotun, hesabatın, sənədləşmənin vahid formaları, onların müddətləri, habelə həmin fəaliyyəti göstərəcək obyektlərin yerləşəcəyi ərazilər maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən edilir. Qaydalara əsasən, xarici valyutanın mübadiləsi vaxtı 500 və daha çox məbləğdə dollar satan, eləcə də 10 min və daha çox məbləğdə dollar alan fiziki şəxslər məcburi surətdə şəxsiyyət vəsiqəsi təqdim etməlidirlər.

**"Keçən iclasımızda Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndəsinə valyutadəyişmə məntəqələri ilə bağlı sual verdik. Üstündən 10 gün keçir, deyilsin görək, bu müddət ərzində nə dəyişiklik, nə yenilik baş verib?"**



**Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sıragagün keçirilən iclasında çıxış edən Rüfət Quliyev deyib. Deputat bildirib ki, bu, çox ciddi məsələdir.** "Hər dəfə də həmkarlarım tərəfindən bu məsələ qaldırılır. Biz də bilmək istəyirik ki, bu məsələdə hansı yenilik var, yoxsa biz elə boş-boşuna danışırıq...".

"Axı niyə? Biz valyutadəyişmə məntəqələrinin açılması üçün axı qanuna dəyişiklik etmişdik. Hesab edirəm ki, bununla bağlı heç bir problem yoxdur. Banklar da şənbə və bazar günləri işləmir"-deyə Rüfət Quliyev bildirib

**Deputat sual edib ki, vətəndaş xarici valyutada olan pulunu bəs necə xırdalasın?**

"Biz qarşımıza turizmi inkişaf etdirməyi məqsəd qoymuşuq. Şəhərdə gəzən zaman görürük ki, turistlər bir-birindən soruşur ki, burada valyutadəyişmə məntəqəsi harada var? Onlar əlində olan pulu xırdalamaq üçün əziyyət çəkirlər. Nəyə görə bir dənə də valyutadəyişmə məntəqəsi yoxdur?"

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) Azərbaycanda valyutadəyişmə məntəqələrinin açılmasına yaşıl işıq yandırıb. Bunu virtualaz.org-a Milli Məclisin deputatı Vahid Əhmədov deyib. Deputatın sözlərinə görə, MBNP 5 oktyabrdan artıq bəzi məntəqələrə lisenziya verilməsinə dair təşkilati işlərə başlayıb.

Xatırladaq ki, manatın devalvasiyasından sonra valyutanın qeyri-leqal alqı-satqısı ilə mübarizə üçün Azərbaycanda mübadilə məntəqələri bağlanmışdı. Valyutadəyişmə məntəqələrinin yenidən qayıtması Rüfət Aslanlının Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyindən getməsi ilə eyni vaxta təsadüf edir. 2016-cı ilin yanvarından Azərbaycanda valyuta mübadiləsi məntəqələri yalnız bankların və poçt bölmələrinin nəzdində fəaliyyət göstərə bilərdilər.

**❑ ORXAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

# Ali məktəblərə yeni qəbul qaydaları - tam təfsilat

## Ekspert deyir ki, 2019-cu ildən tətbiq olunacaq yenilik repetitorluğa ehtiyacı azaldacaq və orta məktəblərin nüfuzunu qaldıracaq

**Dövlət İmtahan Mərkəzi (DİM) və Təhsil Nazirliyi tərəfindən birgə hazırlanan və 2019-cu ildə tətbiqi nəzərdə tutulan buraxılış imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli təqdim edilib.**

DİM-dən verilən məlumata görə, 11 illik təhsil bazasında buraxılış imtahanı 1 mərhələdə keçiriləcək. İmtahan müddəti 3 saat olacaq. Şagirdlər Tədris dili (Azərbaycan dili, rus), riyaziyyat, xarici dillər ( ingilis, alman, fransız, ərəb, fars) fənlərindən imtahan verəcək. Hər fənn üzrə maksimal bal 100 (ümumilikdə 300) olacaq.

Qəbul imtahanında isə maksimal bal 400 olacaq. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanından əldə etdikləri nəticələr də nəzərə alınacaq və qəbul imtahanından toplanılan balın üzərinə əlavə olunacaq. Yəni abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə (maksimal bal - 300+400=700 bal) əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər.

I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən əvvəlki illərin məzunları seçdikləri ixtisas qrupuna daxil olan fənlərlə yanaşı buraxılış imtahanı formatında əlavə qəbul imtahanı da verəcəklər və hər iki imtahandan topladıqları balların cəminə əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər.

V ixtisas qrupu (ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları) və orta ixtisas təhsili müəssisələri üzrə müsabiqə buraxılış imtahanının nəticələrinə əsasən aparılacaq.

Tədris Azərbaycan dili istisna olmaqla, digər dillərdə aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) fənnindən ayrıca imtahan verirlər. İmtahanda şagirdlərə Azərbaycan dili (dövlət dili kimi) fənnindən 30 tapşırıq təqdim edilir. Şagirdlərin toplaya biləcəyi maksimal bal 30 baldır. İmtahanın müddəti 45 dəqiqədir.



Bundan əlavə, tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər buraxılış imtahanının nəticələrinə əsasən ali və orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər buraxılış imtahanının nəticələrinə əsasən ali və orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün Azərbaycan dili fənnindən imtahan verməlidirlər.

**"Yeni Müsavat"a qəbul qaydalarını şərh edən təhsil eksperti Kamran Əsədov bildirdi ki, yeni sistemə hazırlıq işləri sürətləndirilməlidir:** "2008-ci ildən başlayaraq, respublikanın ümumtəhsil müəssisələrində yeni təhsil proqramları (kurikulumlar) tətbiq olunur və yeni məzmun standartlarına uyğun hazırlanmış dərsliklərdən istifadə edilir. Buna görə qəbul imtahanlarının yeni formatda keçirilməsi zəruri idi. Lakin 2017-ci ildə məhz ilk dəfə kurikulumla təhsil almağa başlayanların IX sinifdə buraxılış imtahanları keçirildi, ortaya heç də xoş olmayan nəticə çıxdı. Məlum oldu ki, 2019-cu ildə 5-6 fəndən qəbul imtahanı verəcək şagirdlər 2017-ci ildə 2 fəndən verdikləri buraxılış imtahanları nəticəsinə görə kurikulumu demək olar ki, mənimsəməyiblər. Bununla yanaşı, 2019-cu ildə qruplara daxil olan fənlər üzrə bal paylanma əmsalının hələ də açıqlanmaması ciddi narahatlıq doğurur. Bundan başqa, 7 ay sonra qəbul imtahanı tamamilə yeni formatda keçiriləcək, amma hələ də qəbul aparılacaq fənlər üzrə proqramlar, ədəbiyyat siyahısı yoxdur".

**Ekspert həmçinin buraxılış imtahanlarının yoxlanması prosesinə diqqət çəkərək bu sahədə problemlərin olduğunu bildirdi:** "İki ildir IX siniflər üzrə keçirilən buraxılış imtahanları zamanı müəyyən sayda yoxlayıcı markerin səhvə yol verməsi səbəbindən yüzlərlə şagirdin biliyi düzgün qiymətləndirilməmişdi. Bu hal hər il təkrarlanır. Çünki buna qədər nəticələr proqram təminatı tətbiq edilməklə yoxlanılırdısa, bundan sonra azı hər fəndən 3, ümumilikdə qəbul imtahanında 9, amma buraxılış imtahanında azı 15 test tapşırığı insan faktoru tətbiq edilməklə - marker vasitəsilə yoxlanılacaq. Təbii ki, insan faktorunun tətbiq olunacağı yoxlama prosesində müəyyən nöqsanlar olacaq. Danılmaz faktdır ki, respublikada qiymətləndirmə sahəsində yeni yanaşmaya ehtiyac yaranıb. Bunun üçün dünya təcrübəsindən, konkret olaraq İELTS və SAT imtahanlarının nümunəsindən istifadə etmək lazımdır. Bu həm şagirdin biliyinin müasir standartlara uyğun qiymətləndirilməsinə imkan yaradacaq, həm də valideyinlərin əlavə xərc çəkərək repetitorlara müraciət etməməsi ilə nəticələnəcək. DİM yeni qaydaları müəyyən etsə də, hələ də bütün qəbul qrupları üzrə imtahan iştirakçısına təqdim ediləcək situasiya tipli test tapşırıqlarını müəyyən etməyib. Bundan başqa, Azərbaycan dili və ingilis dili fənni üzrə qəbul imtahanlarında V qrupun mətn üzrə standartları müəyyənləşməyib. Həmçinin XI siniflər üzrə kurikulum standartları əsasında tərtib edilmiş sinif testləri, test banklar çap olunmayıb. Digər bir çatışmazlıq isə ondan ibarətdir ki, təhsil islahatlarına görə bizim yaddaş məktəbindən təfəkkür məktəbinə keçməyimiz tələb olunsa da, təqdim edilmiş imtahan modeli hələ də yaddaş məktəbi üzərində qurulub və kimin yaddaşı güclüdürsə, onun yaxşı nəticə əldə etməsi ilə nəticələnəcək".

**K.Əsədov bal sisteminin də dəyişəcəyini, lakin ixtisas seçimi üçün yeni 700 ballıq sistemin tətbiq ediləcəyini vurğuladı: "Əvvəllər qəbul imtahanında ma**ksimum bal 700 bal idi. Və buraxılış imtahanlarında toplanan bal qəbul imtahanına təsir etmirdi. 2019-cu ildə isə bu 700 bal iki hissəyə bölünəcək. Belə ki, XI siniflər verəcəkləri buraxılış imtahanında 0-300 arası bal toplamalıdır (əvvəlki ilin məzunları eyni modeldə V qrupda imtahan verəcək), ondan sonra seçdikləri ixtisas qrupu üzrə 0-400 bal arası toplamaq üçün imtahan verəcəklər. Yekunda hər iki mərhələdə əldə edilmiş ballar cəmlənəcək və ali və orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi etmək üçün yekun bal olacaq. Bu, əlbəttə ki, buraxılış imtahanlarına münasibəti dəyişəcək. Şagirdlər buraxılış imtahanına daha ciddi hazırlaşacaq ki, bu mərhələdə əldə edəcəkləri nəticə onlara qəbul imtahanında ciddi şəkildə kömək etsin. Hesab edirəm ki, 2019-cu ildən tətbiq olunacaq yenilik repetitorluğa ciddi şəkildə zərbə vuracaq və orta məktəblərin nüfuzunu qaldıracaq. Çünki məktəb buraxılış imtahanının nəticəsinin yaxşılaşdırılmasında maraqlı olacaq. Dövlət İmtahan Mərkəzi tərəfindən ali məktəblərə qəbul imtahanları zamanı biliyin qiymətləndirilməsinin ayrı-ayrı fənlər üzrə aparılması repetitorluğu daha da gücləndirən amillərdəndir. İndi isə mənzərə dəyişəcək".

**Ekspert balların hesablanması ilə bağlı vacib bir məqamı da qeyd etdi:** "DİM onu yazmayıb, ancaq qeyd etməliyəm ki, qapalı tapşırıqlarda səhv düzü aparacaq. Amma açıq sualda səhv olsa, o, düz cavablara təsir etməyəcək və bal aparmayacaq. Qəbul imtahanları 2 dəfə olacaq- ənənəvi olduğu kimi. Amma buraxılış imtahanı və V qrupda 1 dəfə keçiriləcək. 2019-cu ildə keçiriləcək IX və XI siniflər üzrə ən ciddi problem xarici dil fənnindən olacaq. Çünki indiyə qədər orta məktəblərdə "Dinləmə mətni" tətbiq edilməyib. Amma Dövlət İmtahan Mərkəzi "Dinləmə mətni"nə dair (publisistik və ya dialoq) 6 tapşırıq (3 qapalı+3 yazı tələb olunan açıq) imtahan iştirakçılarına təqdim edəcək. Bu, ciddi problem yaradacaq. Orta məktəblərdə bu qurğu yoxdur, şagirdlərdə də bu bilik və bacarıqlar yoxdur və öyrədilməyib. Amma indi bundan bacarıqlar yoxlanılacaq".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# 1 milyonluq əsərini məhv edən müəmmalı rəssam haqda ilginc məlumat

## Benski bu günə qədər adını və kimliyini necə gizlin saxlaya bilib?




**Artıq bir neçə gündür ki, dünya mətbuatında britaniyalı küçə rəssamı Benksinin Londonun satış evində özünə məxsus "Qız və şar" əsərini məhv etməsi olayından söz açılır.**

Xatırladaq ki, qiyməti 860 min funt-sterlinqə (1,1 milyon dollar) çatan rəsm əsəri çəkicin son zərbəsindən sonra "öz-özünü məhv etməyə" başlayıb. Sonradan məlum olub ki, bir müddət əvvəl rəssam çərçivənin aşağı hissəsində kağızı xırdalamaq üçün mexanizm gizlədib və o, hərrac zamanı işə düşüb. Hərracın təşkilatçıları və iştirakçıları bu prosesi heyrətlə izləyiblər. Trafaretin köməyi ilə çəkilən "Qız və şar" əsəri Benksinin ən məşhur rəsmlərindən biridir.

Benski öz saytında məsələyə aydınlıq gətirərək bildirib ki, şəkili məhv etməsi ilə bağlı planı hələ bir neçə bundan əvvəl düşünüb. O, çərçivəyə xüsusi ülgüclər yerləşdirib. Öz əsərini məhv etmə səbəbini izah edərkən isə rus filosofu Mixail Bakuninin sözlərini xatırladıb: **"Məhv etməyə çalışmaq da yaradıcı bir motivasiyadır".**

Bəs əsərləri ilə dünyanı heyran qoyan rəssam Benski kimdir?

Bəzi iddialara görə, onun əsl adı Robert və yaxud Robin Benskdir. Digər versiyalara görə, Benski - ingiltərəli musiqiçi, müğənni və qrafit rəssam Robert Del Nayadır. Onun haqqında yazılan kitablarda qeyd olunur ki, Benski imzalı rəssam 1974-cü ildə İngiltərənin Bristol şəhərində dünyaya gəlib. 1990-cı illərdə o qrafit kimi tanınmağa başlayıb. Lakin getdikcə əsərlərin süjeti kəskinləşməyə başlayanda polis tərəfindən təqib olunmağa başlayıb.

2006-cı ilin payızında Londonun bir neçə mağazasında heç kəsin xəbəri olmadan Paris Hiltonun albomunu dostu Danger Mousun şəkillərdən ibarət qırx dəqiqəlik mahnı və diskləri əvəz etdi. Bunub Beniski tərəfindən edildiyi deyilirdi.

Beləliklə, yaradıcılığında sosial bərabərsizlik, hökumətin ikiüzlülüyünü istedadlı şəkildə rəsmlərə köçürə bilən Benski tez bir zamanda İngiltərədə və sonra da dünyada populyarlaşmağa başlayır.

2010-cu ildə maraqlı hadisə yaşanır. Benskinin "Hədiyyə dükanından çıxış" adlı filmi müəmmalı şəkildə Beynəlxalq Berlin Film Festivalına düşür. Film festivalda Oskar mükafatına namizdə olur və sonda "Ən yaxşı sənədli film" nominasiyasını qazanır.

2011-ci ildə isə internet resuslarında ilginc məktub yayılır. Məktubda bildirilir ki, göstərilən aksiyada iştirak edib, qalib olan şəxsə Benskinin əsl kimliyi haqda məlumat veriləcək. Aksiyada iştirak etmək üçün başlanğıc qiymət 3 000 ABŞ dolları idi. 38 gedişdən sonra bu dəyər 999 999 dollara qədər çatır. Lakin gözlənilmədən aksiya internet səhifəsindən silinir. Bəzi iddialara görə, bu aksiya Benskinin özü və yaxud yaxınları tərəfindən təşkil edilib.

Bir qədər sonra isə Benski 14 seriyadan ibarət məşhur "Simpson" cizgi filiminin yaradılmasında da iştirak edir.

Elə həmin ilin oktyabr ayında Bristolde Benskinin divara çəkilmiş rəsmlərindən biri qaralanır. Bristol sakinləri bu məsələdən çox hiddətlənir və bu addımı vandalizm adlandırır. Məsələnin böyüməməsi üçün şəhər rəhbərliyi Benskinin şəkillərinin divarda qalmasına icazə verir.

2013-cü ildə isə kraliça Yelizavetanın 60 illik yubileyi ilə əlaqədar "Qul əmək" qrafitini çəkir və bu əsər aksiyada 750 000 avroya satılır.

2014-cü ilin oktyabrında isə rəssamın həbs olunduğu barədə məlumatlar yayıldı. Məlumatda qeyd olunurdu ki, polis Vatforda vandallara qarşı əməliyyat keçirib. 24 saat davam edən əməliyyatda 5 adamdan ibarət bir qrup nəzarətə alınıb, hansı ki, aralarında Benski də var. Həmin məlumatda daha sonra bildirilirdi ki, əslində Benski 35 yaşında olan Paul Hornerdir və o, əslən Liverpuldandır. Məlumat böyük ajiotaj yaratsa da, sonra öz təsdiqini tapmadı.

Qeyd edək ki, bu günə qədər Benski dörd kitabın müəllifi, iki kitabın isə qəhrəmanıdır. Onun əsərlərini divarla birlikdə almaq istəyənlər də olub.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 213 (7102) 10 oktyabr 2018

**Sabah UEFA Millətlər Liqasının 3-cü turunda Azərbaycan milli komandası səfərdə Farer adalarının qonağı olacaq. "Torsvollur" stadionunda keçiriləcək Farer adaları - Azərbaycan matçı oktyabrın 11-də Bakı vaxtı ilə saat 22:45-də başlanacaq.**





# Millinin oyunu: Farer adaları, farel balığı və keçi bozartması...

## Azərbaycan millisi sabah Millətlər Liqasının 3-cü turunda Farer adalarının qonağı olacaq; heyətlə bağlı daha nə demək olar?

Qarşılaşmanı Aleksey Yeskovun başçılıq etdiyi rusiyalı hakimlər briqadası idarə edəcək. Ona yan xətt hakimləri Dmitri Mosyakin və Anton Averyanov köməklik göstərəcək. Milli komanda artıq dünən axşam Bakını tərk edib və ada-dövlətə çatıb.

***

Bir neçə gün əvvəl futbola yalnız seyrçi kimi baxan tanışlardan biri "Millət (?) Farel(!) komandası ilə nə vaxt oynayır" soruşanda xeyli zarafatlaşmaq üçün mövzu açıldı. Doğrudan da bu ada-dövlətin adı Bakıda heç də hamının mövsümündə dada bilmədiyi farel balığına çox bənzəyir. Amma məlum həqiqətdir ki, keçiləri ilə məşhur olan bu ölkə "keçi ölkəsi"olaraq tanınır, gerblərində də bu yaradılanın əksi var. Yəni keçilərini çıxsaq, bizdən də, Avropadan da uzaq bir naməlum adadır. Farer adalarından İslandiyaya qədər məsafə - 450 km, Norveçə qədər - 675 km, Kopenhagenə qədər - 1117 km.-dir. İndi gəl baş aç ki, Azərbaycan millisi dünən niyə İslandiyadan deyil, ən uzun məsafə olan Kopenhagendən Farer adalarına uçub... Statistikanı Farer adaları ilə səfər matçının Azərbaycan millisinin baş məşqçisi Qurban Qurbanov üçün əlamətdar olmasına dair bir faktla yekunlaşdıraq. Sportinfo.az xəbər verir ki, Qurbanov futbolçu qismində 27 fevral 1996-cı ildə Azərbaycan millisinin Farer adalarını 3:0 hesabı ilə yendiyi görüşdə qol vurub.

***

**"Liverpul"un baş məşqçisi Yurgen Klopp UEFA Millətlər Liqasını tənqid edib. Alman mütəxəssis yarışı mənasız turnir adlandırıb:** "Təəssüf ki, "Mançester Siti" ilə oyundan sonra futbolçularımız dünyanın ən mənasız turniri olan Millətlər Liqasında oynamaq üçün öz yığmalarının düşərgəsinə yollanacaq".

**Klopp daha sonra kinayə ilə deyib:** "Ümid edirəm ki, onlar milli komandalarında sağlam qayıdacaq və Premyer Liqa, Çempionlar Liqası kimi asan turnirlərdə oynayacaqlar.

Əgər futbolçuları formada görmək istəyirsinizsə, onlara istirahət üçün fasilə verin. Oyunçuların yığmaya getməsi elə də ciddi və böyük problem deyil. Əgər indi hansısa millinin baş məşqçisinə zəng vurub 1-2 futbolçunu düşərgəyə çağırmamağı xahiş etsəm, mənə Millətlər Liqasına görə təzyiq altında olduğunu söyləyəcək. Açığı, bilmirəm, orada nə qazanmaq olar. Amma gələn yay bu turnirdə hansısa final oyunu keçiriləcək". "Liverpul"un baş məşqçisinin kinayəsini başa düşmək olar. İngiltərə çempionatında gərgin mübarizə gedir, indi futbolçunun ayağından qiymətli heç nə yoxdur baş məşqçilər üçün. Bu səbəbdən Yurgen Kloppa haqq verməli olar. Doğurdan da ilk dəfə keçirilən Millətlər Liqasına yalnız bizim kimi ölkələrdə daha çox maraq olduğu hiss olunur. Avropanın nəhəngləri də liqada oynayır, amma belə görünür ki, Avro-2020-yə cəmi 4 vəsiqə verəcək bu turnirə maraq istənilən səviyyədə alınmadı. Bir çox komanda üçün ML elə yenə də yoldaşlıq görüşü səviyyəsindən yuxarı qalxmayıb. Qurban Qurbanov da müsahibələrinin birində bu turnirin yenidən keçirilib-keçirilməyəcəyinin sual altında olduğunu demişdi. Məsələn, biz güman edirdik ki, bəlkə ML Avro-2020-yə vəsiqə qazana bilərik. Amma son iki oyun göstərdi ki, yox, heç burada da bizim irəli getmək şansımız çox deyil. İki oyunda cəmi iki xal... Farer adaları D Liqasının 3-cü qrupunda 3 xalla 2-ci pillədə qərarlaşıb, Azərbaycan isə 2 xalla 3-cü yerdədir. Bu gün Farer adaları da qələbə qazanmağa çalışacaq ki, bu onlar üçün də çox mühümdür. Çünki istənilən turnirdə üçüncü tur oyunları turnir cədvəlində xüsusi əhəmiyyətli olur.





***

Milli komandanın heyətində xüsusi dəyişiklik yoxdur. Milliyə dəvət edilən 5 nəfər karyerasını ölkə xaricində davam etdirir ki, bunlar Pavel Paşayev ("Aleksandriya", Ukrayna), Riçard Almeyda("Astana", Qazaxıstan), Dmitri Nazarov ("Aue", Almaniya) , Ramil Şeydayev ("Krılya Sovetov", Rusiya) və Rüfət Dadaşovdur ("Proysen", Almaniya). Rusiya, Ukrayna və Qazaxıstanda milli çempionatlara bələd olsaq da, Almaniyadan gələn millilərin vəziyyətini bizim yerli saytlar diqqətli izləyirlər. Milliyə Bakıdan çağırılmayanlar sətiraltı inciklikləri bildirir, xaricdən dəvətlilər isə sevinclidirlər. Məsələn, saytlarda Rüfət Dadaşovun açıqlamasını oxudum. Millidə əvvəl oynayıb, indi yenidən heyətə cəlb edilməsinə yaxşı mənada təəccüblənib. Onun haqqında yazılır ki, Almaniya üçüncü liqasında ən çox top vuran oyunçulardandır. Ona görə deyirəm ki, bu Almaniya üçüncü liqasının səviyyəsini biz görüb qiymətləndirə bilmirik. Bəlkə elə Rüfətin oynadığı klub bizim milli komanda ilə başa-başa oynaya bilər? Bu səbəbdən də onunla bağlı anadolular demiş, önyarğılı olmaq istəmirəm. Baxmayaraq ki, onun adı bu yaxınlarda erməni baş nazir Paşinyanın şəklini layk etməklə də gündəmə gəlmişdi ki, bu milli oyunçu üçün nə deməkdir, pisdir, yoxsa yaxşıdır onu da komandanın başbilənləri düşünsün. Əsas odur ki, komandaya yararlı olsun, qol vursun...



***

Heyətlə bağlı daha nə demək olar? Maksim Medvedyev "Arsenal"la oyunda yaxşı təsir bağışladı, real qol imkanından yararlana bilməsə də, milli komanda üçün bu gün çalışacağı şübhəsizdir. Bədavi Hüseynov də həmçinin. Təmkin Xəlilzadə ML son oyunda vacib qol vurdu, amma vurmasaydı belə, onun start heyətdə meydana çıxması işin xeyrinə olardı. Pavel Paşayevin hərdən babat zərbə vurmağı var, eləcə də Dmitri Nazarovun da. Riçard Almeyda hələ ki komanda üçün iş görür, amma əvvəlki kimi ürəklə oynamır sanki, ya da yaşlaşıb. Hücum xəttinə isə Mahir Mədətov, Ramil Şeydayev, Rüfət Dadaşov və Ruslan Qurbanov cəlb edilib ki, onlar haqda dəqiq fikir bildirmək çətindir.

Mahir "Arsenal"la oyunda çox çalışdı, amma yenə fərqlənə bilmədi. Yəqin Qurban qardaşımız bu gün də onu start heyətdə meydana çıxaracaq. Sonra isə ehtiyac olsa, legionerlərdən biri ilə əvəzləyəcək. Rüfət Dadaşovun startda oynaması yaxşı olardı, görək bizdən layk ala biləcəkmi? Sonda deyirəm ki, milli komanda sabah qalib gəlsə, farel balığı da, keçi bozartması da halallarıdır...

❑ **Nazim SABİROĞLU, "Yeni Müsavat"**




## Ölkə azaddırsa, orada kişilər ağılsızlaşır

**Qadın azadlığı kişilərin riyazi qabiliyyətlərini aşağı salıb. Avstriya, Norveç və İsveç alimlərinin apardığı tədqiqatdan sonra belə nəticəyə gəlinib. Alimlər qrupu kişi və qadınların idrak qabiliyyətinin fərqli tərəflərini araşdırıb.**

Həyat səviyyəsi yüksək olan ölkələrdə hər iki cins arasındakı idrak qabiliyyətinin müxtəlif dinamikası müşahidə olunub. Məsələn, qadınların yaddaşı yaxşılaşdığı halda, kişilərin riyazi bacarığı aşağı enməyə başlayıb. Mütəxəssislər iddia edir ki, idrak qabiliyyətində olan fərqlilik həyat səviyyəsinin yüksəlməsi və təhsilli qadınların sayının artması ilə bağlıdır. İş ondadır ki, kişilərin idrakı dəyişməz olaraq qaldığı halda, qadının idrakı getdikcə yüksəlməkdədir. Nəticədə hər iki cins arasında fərq yaranır.

Tədqiqatlarda Avropanın müxtəlif ölkələrindən yaşı 50-dən çox olan 30 min insan iştirak edib. İştirakçılara yaddaşı, riyazi qabiliyyəti və savadı yoxlayan digər suallar verilib.

# Pul saymaq beynə xeyirdir

**Minessota Universiteti (ABŞ) alimləri pul saymağın insanın sağlamlığına və əhvalına olan təsirini araşdırıblar. Araşdırmalar pul saymağın stresi azaltdığını, əhvalı və beyin qan dövranını yaxşılaşdırdığını təsdiqləyib.**



Söhbət həm kağız puldan, həm də xırda puldan gedir. Bunun sadə elmi izahı var - barmaqların kiçik motorikası (barmaqların hərəkətləri) beyinin fəaliyyətinə müsbət təsir edir, onu stimullaşdırır.

Lakin həkimlər xəbərdarlıq edir - pul ən çirkli "əşya"lardan biri sayılır. Araşdırmalar göstərib ki, pulların üzərində 200-ə (!) qədər müxtəlif ziyanlı mikrob ola bilər.

# Elə xəstəliyi var ki, 4 aydır yemək yeyə bilmir

**Niderland sakini Kelli Bekers dörd ay yarımdır yemək yeyə bilmədiyi xəstəliyi barədə danışıb. Onunla "Daily Mail" jurnalının əməkdaşları danışıblar. Bekers nadir görülən mədə-bağırsaq xəstəliyinə görə yeməkdən imtina edib. Doğuluşdan bəri onda mədə-bağırsaq problemi olsa da, son aylarda xüsusən qabarıq olub. 21 yaşlı holland qız özü ilə xüsusi cihaz gəzdirir. Bu da onun mədə-bağırsağındakı axıntıları təmizləyir.**

Qız etiraf edib ki, bir neçə dəfə az qala bədənindəki kateterlərə görə şoka girib. Qız ötən ay ölümün bir addımlığında olub: "Ürəyimdən üç santimetr məsafədə olan katetera infeksiya düşmüşdü. Valideynlərim də mənimlə sağollaşırdı. Düşünürdülər ki, qızlarının son günləridir".

Buna baxmayaraq, Bekers maksimal şəkildə tam yaşamağa çalışır. O qeyd edir ki, yeməkdən ötrü darıxmır. Amma dostları və ailəsi birgə ailə yeməklərindən ötrü darıxır. Qız işləyə bilmir. Amma xəstəliyi ilə bağlı mühazirələrə qatılır və idman klubunda yardım edir.

Bu yaxınlarda Bekers Lifke adlı müalicəvi it alıb və indi valideynlərindən ayrı yaşayır. İtin funksiyası onu düşə biləcəyi depressiyalardan xilas etməkdir. İt eyni zamanda həyəcan təbili çala bilər. Əgər qız özünü pis hiss etsə, it dərhal ətrafdakıları yardıma çağıra, eyni zamanda məişət texnikasından istifadə edə bilər.





## İnsan əlləri tapıldı

**Rusiyada bir sellofan torbada 27 cüt insan əli tapılıb. Çin sərhədinə yaxın, Sibirdəki Xabarovsk şəhərində tapılan əllərin sirri hələ tapılmayıb. Bir çayın kənarında tapıln əllərin sirri ilə bağlı ortaya bir neçə teoriya atılıb. Amma polis bunları təsdiqləməyib. Balıq ovlanan populyar bir məkdanda çantanı tapan polis məmuru çevrəcə başqa şübhəli bir şeyə rast gəlmədiklərini deyib. Əllərlə bağlı teoriyalardan biri ondan ibarətdir ki, onlar oğurluq nəticəsində kəsilib. Digər versiya isə xəstəxanadakı ölü bədənlərdən kəsilmələri yönündədir. Başqa bir iddia isə bunun cəsədlərdən bədən parçaları oğurlayan bir dəstənin əməli olması ilə bağlıdır. Sübutların yanında tibbi bandajlar və xəstəxanalarda istifadə olunan xüsusi ayaqqabılar tapılıb. Polis mövzu ilə bağlı hər hansı bir açıqlama verməyib.**

## Qoroskop




**QOÇ** - Bu gün gələcək büdcənizi rahatlamaq üçün əhəmiyyətli sövdələşmələrdə iştirakınız labüdləşəcək. Belə görüşlərdə və qonşuluq münasibətlərində gərginliyə yol verməyin. Özünüzü soyuqdəymədən qoruyun.

**BUĞA** - Günün ilk yarısında səhhətinizlə bağlı problemlərin həlli ilə məşğul olun. Sonrakı müddətdə isə planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İmkan varsa, ailə üzvlərinizə sürprizlər edin.

**ƏKİZLƏR** - Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın. Yaxın on gündə görəcəyiniz sənəd işlərini dəqiqləşdirin. Saat 16-dan sonra sizə ehtiyac duyanlara baş çəkin.

**XƏRÇƏNG** - Təəssüf ki, ixtiyarınızda olan bu tarixdə hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da günün birinci yarısında. Amma naşükürlük etməyin, yeni həftəyə böyük ümidlər bəsləyin.

**ŞİR** - Ulduzlar qarğış və söyüşlərdən uzaq olmağı, falçı və cadugər yanına getməməyi məsləhət görür. Çünki indi sizin ruhi saflaşma prosesinizdir və gərək Tanrıya xoş getməyən addımlardan yayınasınız.

**QIZ** - Saat 15-17 arası sizin üçün təhlükəli vaxtdır. Bu səbəbdən də həmin vaxt daha çox neytrallıq nümayiş etdirməyiniz lazım gələcək. Günün qalan hissəsində isə iş və maliyyə məsələlərində uğurlar olacaq.

**TƏRƏZİ** - Ətrafınızı dəyişməkdənsə, özünüzü dəyişməyiniz daha asan olar. Gün ərzində özünüzü gümrah aparın, hər kəslə dil tapmağa çalışın. Əmin olun ki, bunu bacarsanız, axşama fərqli bir insan olacaqsınız.

**ƏQRƏB** - Ümumi mənzərəyə görə yaxşı gün demək olar. Əqidə və ideyalarınızdakı doğruluğu, saflığı qorusanız, belə də olacaq. Sevgidə təşəbbüskar və mərhəmətli olun. Keçmişinizdən hər zaman dərs götürün ki, uduzmayasınız.

**OXATAN** - Qurulan yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək. Amma hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalmalısınız. Bu gün səfərə çıxmayın.

**OĞLAQ** - Daha çox istirahət edin. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir. Onsuz da sidq-ürəklə "dost!" deyib çağırdığınız adamlar kifayət qədər deyil.

**SUTÖKƏN** - Gözlədiyiniz xoş məqamların vaxtı yetişməkdədir. Bu səbəbdən evdə oturmaqdan vaz keçin. Sizə daha çox ünsiyyət lazımdır, hətta yaxın ünvanlara səfər də olar. Hamı bu gün sizi anlayacaq.

**BALIQLAR** - Uzaq yola çıxmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən çəkinin. Bu iki amildən başqa bütün sahələrdə müvəffəqiyyət sizinlə olacaq. Gecəni öz evinizdə keçirin. Sevgisiz qalmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Balıqçı toruna dana düşdü



**Türkiyənin Kocaeli şəhərinin Kandıra bölgəsində balıq tutmaq üçün Qaradənizə qayıqla çıxan balıqçıların toruna 700 kiloluq dana düşüb. Əli Koç və Dəniz Koç adlı balıqçılar Qaradəniz sahillərində torlarını ataraq qənimət gözləməyə başlayıblar. Bir müddət sonra torun dartıldığını görən qardaşlar sevinib. 112 metr dərinlikdən çıxarılan tora 700 kiloluq dananın "ilişməsi" isə onları xeyli təəccübləndirib. Balıqçılar təxmin edirlər ki, bu dana ölkə xaricindən idxal edilən heyvanları daşıyan gəmilərin birində olub və öldüyü üçün onu dənizə atıblar.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
Lisenziya N: B 114
SAYI: 5.100
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.